Nino Beseliya
Nino Bokeriya
Maka Kordzadze

ŞAGİRDİN KİTABI

# Aktiv vətəndaş necə olmalıyam

IX siniflər üçün Mülki təhsilə köməkçi vəsait

USAID FROM THE AMERICAN PEOPLE
PH international ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

**AKTİV VƏTƏNDAŞ NECƏ OLMALIYAM**
**Şagirdin kitabı**

Mülki təhsil dərsliyinə köməkçi vəsait IX sinif üçün, ikinci nəşr

Dərsliyin ikinci nəşri çap üçün "**SEZAN" MMC**-də hazırlanmışdır. İkinci nəşr dərsliyin birinci nəşrinin xırda dəyişikliklərlə yeni versiyasıdır.
Müəlliflər:
**Nino Beseliya**
**Nino Bokeriya**
**Maka Kordzadze**

İşçi qrupun lideri:
**Nino Beseliya**

Birinci nəşr üzərində işləmişlər:

Məsləhətçilər:
**Natiya Natsvlişvili**
**Ketevan Canuaşvili**

Tərcümə edəni: **Qızxanım Əhmədova**
Redaktor: **Oqtay Kazımov**
Dizayner: **Marta Tabukaşvili**
Cildləyən: **Yana Danelyan**

© Project Harmony, Inc., 2015
Bütün hüquqlar qorunur.

Dərsliyin birinci  nəşri çap üçün "Sakartvelos matsne qəzeti" MMC-də hazırlanmışdır.

ISBN 978-9941-0-6989-5

Dərslik Amerika xalqının dəstəyi və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin səyinin nəticəsində hazırlanmışdır. Verilən dərslikdəki informasiya və onda söylənilən fikirlər üzrə məsuliyyət birmənalı şəkildə müəlliflərə aiddir və bu fikirlər Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin və ya Amerika Birləşmiş Ştatlarının hökumətinin nəzərlərini təqdim etmirlər.

# Ön söz

2010-2014-cü illərdə Gürcüstanda mülki təhsilin və müəllimlərin yenidən hazırlıq proqramı həyata keçirilmişdir. Proqramı Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə dəstəyi ilə PH İnternational həyata keçirir. Proqramı Gürcüstan Elm və Təhsil Nazirliyi dəstəkləyir.

Proqramın məqsədi mülki təhsil məktəb proqramının keyfiyyətinin yaxşılaşdırılması və demokratik cəmiyyətin quruculuq prosesində gənclərin iştiraklarına dəstəyin verilməsidir.

Bu məqsədə nail olmaq üçün proqram çərçivəsində mülki təhsilin tədrisi üçün 4 köməkçi vəsait tərtib olundu; müəllimlər üçün treninqlər keçirildi; məktəbdə vətəndaş klubları yaradıldı; şagirdlərin, müəllimlərin və valideynlərin mülki təşəbbüsləri üçün kiçik qrantlar verildi; mülki təhsil müəllimlərinin forumunun əsası qoyuldu; mülki təhsilin yay düşərgələri təşkil edildi; mülki təhsilin və mülki təşəbbüslərin iki internet-portalı www.civics.ge və www.initiatives.ge yaradıldı, şagirdlər üçün sosial media üzrə treninqlər keçirildi və mülki təhsil kitabxanaları açıldı.

Qarşıdakı dərslik proqram çərçivəsində yaradılan köməkçi dərsliklərin seriyasından biridir. Dərslik xırda dəyişikliklərlə təkrarən 2015-ci ildə Mülki təhsilin yeni proqramı "Gələcək nəsil" çərçivəsində çap edilmişdir. Bu proqram da PH International təşkilatı tərəfindən, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi və Gürcüstan Təhsil və Elm Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

Dərslik sizə bir çox maraqlı və faydalı məlumat verəcək, sizə gündəlik həyatda və fəaliyyətdə aldığınız bilikdən faydalanmaq, həmfikirlərinizi, tərəfdaşlarınızı tapmaq, onlarla birlikdə cəmiyyət üçün faydalı layihələr həyata keçirmək imkanını verəcəkdir.Praktiki fəaliyyətdə yaxşı vətəndaşlıq prinsiplərini həyata keçirməklə, şagirdlər güclü demokratik dövlət olaraq, Gürcüstanın quruculuğunda və inkişafında iştirak edəcəklər.

Gələcək nailiyyətlər arzusu ilə,
PH International - Gürcüstan

# MƏZMUN

Giriş 5
Kitabdan necə istifadə edək 7

**Mövzu 1**
Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir 10

**Mövzu 2**
Aktiv vətəndaşlıq və mülki cəmiyyət
(Demokratik cəmiyyətin xüsusiyyətləri) 24

**Mövzu 3**
Diskriminasiya və bərabərlik - hamı fərqlidir, hamı bərabərdir 36

**Mövzu 4**
Vətəndaşa cəmiyyətdən və cəmiyyətə vətəndaşdan nə lazımdır 60

**Mövzu5**
Aktiv vətəndaşlıq üçün demokratik cəmiyyətin üstünlüyü 76

Əlavə 83
Lüğət 87
İstifadə olunan ədəbiyyat 91

# Giriş

Gənclər,

Qarşınızdakı dərslik demokratik cəmiyyətin quruculuğunda rolunuzu və xidmətinizi müəyyənləşdirməkdə, aktiv vətəndaşın xüsusiyyətlərini, vətəndaş cəmiyyətinin və demokratik dəyərlərin nəyi bildirdiyini dərk etməkdə sizə yardım edəcəkdir.

Dərs prosesi ərzində layihəni yaradacaqsınız - ətrafınızdakı problemi seçəcək, problemin həlli yollarını qarşınıza qoyacaq, onu dövlət təsisatları və vətəndaş cəmiyyətinin köməyi ilə həll edəcəksiniz. Belə bir əməl sizə ictimai həyata cəlb olmağa və öz biliyinizi, istedadınızı, qabiliyyətinizi gerçəkləşdirməyə, həyat təcrübəsini qazanmağa imkan verəcək və özünüzün, ailənizin, sinfinizin, məktəbinizin, icmanızın, kəndinizin, şəhərinizin və ölkənizin xeyri üçün çalışa biləcəksiniz.

Demokratiyanın bərqərar olmasının sadə proses olmadığını unutmayın. Demokratiyanın varlığı üçün bütövlükdə onun əsas prinsiplərinin tətbiq edilməsi və həyata keçirilməsi üçüncəmiyyətin birgə səyi lazımdır. Demokratiya mühüm şəkildə vətəndaş cəmiyyətinin nə dərəcədə inkişaf etmiş demokratik sistemdə olması ilə müəyyənləşdirilir. Totalitar siyasi sistem cəmiyyətdə passivlik və **apatik** əhval-ruhiyyəni formalaşdırdıqda, həqiqi demokratiya insanların və insan qruplarının fəal vətəndaşlar kimi formalaşmalarına imkan yaradır. Demokratik cəmiyyətdə vətəndaşlar öz maraqlarına əsasən inkişaf edir, öz hüquqlarından istifadə edir, özlərinin və ətrafdakılarının xoş güzəranı üçün məsuliyyət daşıyırlar. Onlar bilik yönümlüdürlər, çünki həqiqətən də hər növ cəmiyyət üçün təhsil lazımdır, xüsusilə də demokratik cəmiyyət üçün olduqca vacibdir.

**Tomas Ceferson** yazırdı: əgər bir millət cahili ola-ola azad vətəndaş cəmiyyəti kimi özünü nümayiş etdirmək arzusunda olsa, belə bir arzu əsla gerçəkləşməyəcəkdir. Avtoritar cəmiyyət mövcud gerçəkliyin passiv qəbul edilməsinə və ona uyğunlaşmağa – konformizmə dəstək verir. Bu da mövcud olana adət etməyi, problemə göz yummağı bildirir. Bunun əksinə, demokratik cəmiyyətin məqsədi vətəndaş təhsilinin vasitəsilə elə bir vətəndaşların formalaşmasına dəstək verməkdir ki, onlar ətraf mühiti tənqidi qiymətləndirmək və birlikdə iştirak etmək bacarıqlarını inkişaf etdirsin, demokratiyanın əsas anlayışlarını yaxşı tanısın və onları təcrübədə həyata keçirə bilsinlər.



## Kitabdan necə istifadə edək

Qarşıdakı dərslikdə Mülki təhsillə əlaqədar 5 mühüm mövzu təhlil olunur. Bunlardır:

**Mövzu 1 – Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir**

Bu fəsildə demokratiyanın müəyyənləşdirilməsi, dövlətin idarə olunmasının avtoritar və demokratik formaları arasındakı fərqlərlə tanış olacaqsınız. Demokratik cəmiyyətin xüsusiyyətlərini, layihənin hazırlanmasının pillələrini anlayacaqsınız.

**Mövzu 2 – Aktiv vətəndaşlıq və vətəndaş cəmiyyəti (demokratik cəmiyyətin xüsusiyyətləri)**

Bu fəsildə vətəndaş cəmiyyətinin üzvünün hansı bilik və bacarıq-vərdişlərə sahib olması ilə tanış olacaqsınız.

**Mövzu 3 – Diskriminasiya və bərabərlik – hamı fərqlidir, hamı bərabərdir**

Tolerant və qeyri-tolerant davranışları müəyyən edəcək, diskriminasiyanı necə dəf etməyi öyrənəcəksiniz.

**Mövzu 4 – Cəmiyyətə vətəndaşdan və vətəndaşa cəmiyyətdən nə lazımdır**

Burada cəmiyyətə vətəndaşdan və vətəndaşa cəmiyyətdən nəyin gərək olduğu barədə söhbət gedir.

**Mövzu 5 – Aktiv vətəndaşlıq üçün demokratik cəmiyyətin üstünlükləri**

Aktiv vətəndaşın formalaşması üçün demokratiyanın nə dərəcədə əlverişli mühit yaratdığı təsvir edilir.

Hər bir mövzu nəzəri hissədən və praktiki tapşırıqlardan ibarətdir. Bu tapşırıqların məqsədi dərsdə mənimsənilən nəzəri materialın dərinləşdirilməsidir.

Hər fəsildən sonra layihənin hazırlanmasının hər bir pilləsi təsvir edilir.

Tapşırıqlarda qruplara necə bölünmək və son məqsədə nail olmaq üçün hansı mərhələdə hansı işləri həyata keçirmək lazım olduğu ətraflı şəkildə izah olunur.

Eləcə də kitaba dərslikdə verilən terminlərin izahatlı lüğəti əlavə olunur.

Bu dərslikdən baza və orta pillələrin IX siniflərində mülki təhsilin mühüm məsələləri barəsində biliklərinizi daha da dərinləşdirmək üçün istifadə edə bilərsiniz.

# Mövzu 1



# Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir



# Mövzu 1

# Demokratiya nədir və demokratik cəmiyyət nəyi bildirir

## Dərs 1

**L ü ğ ə t**

Apatiya – həvəsin, marağın olmaması, hər şeyə soyuqqanlı yanaşmaq.

Tomas Ceferson - Amerika Birləşmiş Ştatlarının prezidenti. O," Amerikanın Müstəqillik Bəyannaməsini" yazmışdır. Bu əhəmiyyətli sənədi hazırladığına görə Amerika milli qəhrəmanına çevrilmişdi.O, savadlı insan idi. Onun həyat kredosu belə idi – "Mən kitablarsız yaşaya bilmirəm".

Dəyərlər –insanın özü üçün-vacib hesab etdikləridir. Dəyərlər nəyin yaxşı, düzgün və arzuedilən olması haqqında sosial cəhətdən qəbul edilən ideallardır.



Bu fəsildə demokratiyanın nəyi bildirdiyini nəzərdən keçirəcəksiniz. Dünyanın müxtəlif xalqlarının nə üçün cəmiyyətin demokratik quruluşunu seçdiyini, idarəetmənin qeyri-demokratik formalarına nisbətən onun hansı üstünlüyə malik olduğunu görəcəksiniz. Qeyd edilən məsələlərlə tanışlıq demokratik idarəetmənin formasının totalitarizmə nisbətən üstünlüyünü dərk etməkdə sizə yardım edəcəkdir. Demokratik idarəetmədə özünüzün və başqalarının hüquqlarını müdafiə etməyin nə qədər asan olduğunu başa düşəcəksiniz. Eləcə də, layihənin hazırlanması pillələrini, ətrafınızdakı problemi seçməyi və layihənin üzərində işə başlamağı öyrənəcəksiniz.

Bu günkü dərsi demokratiya anlayışının izahatı ilə başlayaq. **Demokratiya** termini yunan sözüdür və xalqın idarəetməsini nəzərdə tutur. Demokratik idarəetmə forması vətəndaşlara bərabər olmaq, ölkənin siyasi və ictimai həyatında fəal iştirak etmək,dövlətdə baş verən proseslər barədə ətraflı məlumat almaq imkanını verir.

Müasir dünyada mövcud demokratik ölkələr üçün demokratiya təkcə dövlətin idarəolunma vasitəsi deyil, eləcə də, həyat qaydası deməkdir. Demokratik ölkənin vətəndaşı öz seçimində azaddır, öz fikrini sərbəst şəkildə ifadə edir, onun özünüifadə hüququ (söz, toplantı və s.), assosiasiyalar yaratmaq azadlığı var,hamı qanun qarşısında azaddır. Demokratik ölkənin vətəndaşı öz hüquqlarını tanıyır və onları müdafiə edə bilir. Eləcə də ölkə və cəmiyyət qarşısında öz vəzifə borclarını dərk edir.

Demokratiya, əsasən, təsbih edilmiş sistem deyil, proses kimi müəyyənləşdirilir. Demokratik dövlətlər müəyyən edilmiş məqsədləri və idealları nəzərə almaqla inkişaf edirlər. Qeyd etmək lazımdır ki, demokratiyanın inkişafı növbəti **dəyərlərin** nəzərə alınması ilə baş verməlidir: azadlıq, bərabərlik, tolerantlıq,

qərarların qəbul edilməsində vətəndaşların iştirakı, ədalət, müxtəliflik, xalq suvereniteti, vətənpərvərlik, qanuna tabe olmaq, güclərin bölünməsi, təmsilçi hakimiyyət, nəzarət və tarazlıq, fərdi hüquqlar *(sadalanan dəyərlərin izahatına səh. 79-80-də baxın)*.

Beləliklə, demokratiyanın əsas prinsipi bütün hakimiyyətin birbaşa xalqa və ya onun nümayəndəsinə aid olmasındadır. İdarəetmənin bütün digər formaları bu prinsipi pozurlar. Məsələn, avtokrat dövlətin idarəetməsində hakimiyyət konkret insanın və ya müəyyən sosial sinfin əlində olur. Onlar qalan əhalinin adı ilə qərar qəbul edir və insan hüquqları və azadlıqlarını, insanın dəyərlərini və xoşbəxtliyə tərəf meyllərini tapdalayırlar. Bir çox hallarda, avtokrat hakimlər günahsız insanların həyatlarına da toxunurlar. Buna misal olaraq Sovet İttifaqını göstərmək olar. Onun totalitar rejimi bir çox günahsız insanın həyatına son qoymuşdur. Unutmamalıyıq ki, totalitarizm demokratiyanın əksinə olan bir anlayışdır. O, antidemokratik siyasi quruluş, rejimdir. Bu zaman dövlət cəmiyyətin və şəxsiyyətin üzərində hakim kəsilir. O, cəmiyyətin bütün sahəsi üzərində nəzarətini möhkəmləndirməyə çalışır. Təəssüflər olsun ki, hal-hazırda da totalitar dövlətlər mövcuddurlar, məsələn, Kuba. Burada bu gün də insan hüquqları və azadlıqları məhdudlaşdırılır.

"Azadlıq Evi"beynəlxalq təşkilatın2009-cu il tədqiqatı nəticəsində verilən məlumatlara görə dünyada demokratiyanın inkişafı səviyyəsinə əsasən ölkələr üç kateqoriyada birləşirlər: demokratik ölkələr, qismən demokratik ölkələr və qeyri-demokratik ölkələr. Xəritədə ölkələr məhz bu sistemin əsasında bölünmüşlər.



yaşıl rənglə demokratik ölkələr qeyd edilmişdir;

sarı rənglə - qismən demokratik ölkələr;

yasəmən rənglə - qeyri-demokratik ölkələr.

**Lüğət**

Avtokratiya – dövlətin idarəetmə forması, bu zaman tam hakimiyyət yalnız bir insana məxsusdur.





**Lüğət**

Diktatura – hakim sinfin və ya hakimiyyətə sahib olan şəxsin qeyri-məhdud şəkildə dövləti idarəetməsi.

Gördüyünüz kimi, 21-ci əsrin əvvəlində dünya ölkələrinin bir çox hissəsi demokratik və ya qismən demokratikdir. Demək olar ki, bütün Avropa cəmiyyəti demokratik hesab olunur, çünki qeyd edilən ölkələrdə yuxarıda sadalanan demokratik dəyərlərə riayət olunur; qismən demokratik ölkələrdə əsas demokratik dəyərlər məhdud olan ölkələr nəzərdə tutulur.

Siz artıq demokratiya anlayışının mahiyyəti, totalitar ölkənin xüsusiyyətləri ilə tanış oldunuz. Alınan biliyi möhkəmləndirmək üçün növbəti tapşırıqları yerinə yetirin:

**Tapşırıq 1**

Cədvəldə sadalanan ölkələri xəritədə axtarın (səh.11) və bu ölkələrdə demokratiyanın inkişafının səviyyəsi barədə müzakirələr aparın. Yuxarıda sadalanan demokratik dəyərlərdən hansı dəyərlər bu ölkələrdə bərqərar olunmuş və hansılarda bərqərar olunmalıdırlar?







Berlin divarı

| Ölkə | Demokratiya | Diktatura |
|---|---|---|
| Gürcüstan | | |
| Norveç | | |
| İsveç | | |
| Liviya | | |
| Kuba | | |
| ABŞ | | |
| Çin | | |

## Tapşırıq 2

İnformasiya vasitələri ilə tanış olun və beynəlxalq miqyasda harada demokratik dəyişikliklərin davam etdiyini yazın. Qruplara bölünün və hər hansı bir ölkəni seçin, məsələn, Misir, Sudan, Liviya. Bu ölkələrdə 2011-ci ildə demokratik dəyişikliklər baş verirdi və seçdiyiniz ölkənin demokratik inkişafı ilə əlaqədar məlumatları axtarın.




**Revaz İnanişvili** 20-ci əsrin gürcü yazıçısıdır. Yaxın dostu kinorejissor və yazıçı Rezo Esadze onu öz xatirələrində “sadə” insan adlandırırdı. Həqiqətən də Rezo İnanişvili şəxsi həyatı ilə diqqəti cəlb etməyən bir insan idi. Onun “adi” sözü məişət hekayətlərində mövcud gerçəkliyi ona xas dəqiqlik, səmimilik və sevgi ilə əks etdirir. “Qolqofada balaca oğlan” avtobioqrafik əsərdir. Onda insan dəyərinin necə tapdalandığı və totalitar dövlətdə şəxsiyyət azadlığının necə məhdudlaşdırıldığı verilir.



## Tapşırıq 3

“**Qolqofada balaca oğlan**”- Revaz İnanişvilinin hekayəsini oxuyun və cavab verin:

**Hekayəni oxuyana qədər:**
- “Qolqofaya çıxmaq” ifadəsinin nə demək olduğunu yadınıza salın. Bu hekayənin nəyin barəsində ola biləcəyini təxmin edin;
- bir neçə cümlə ilə ehtimalınızı yazın; hekayəni oxuyun.

**Oxu prosesində:**
- baş qəhrəman üçün, oğlanın atası üçün xarakterik epitetləri yazın;
- üçüncü abzasdan totalitarizmə olan etimadsızlığı təsvir edən cümlələri yazın;
- həbs edildikdən sonra oğlanın atası üçün xarakterik epitetləri yazın;
- oğlanın atasının, oğlanın, ailə üzvlərinin hansı hüquqları pozulmuşdu? Tapdığınız hüquq pozuntularını insan hüquqlarının ümumi **bəyannaməsinin** müvafiq maddəsinə uyğunlaşdırın.

### Lüğət

Qolqofa – Aramey dilində “kəllə” deməkdir. Qolqofa Qüds yaxınlığındakı dağdır. Bu dağda günahkarları ölümlə cəzalandırırdılar və rəvayətə görə, İsa Məsih çarmıxa burada çəkilmişdir.

Bəyannamə - elan, ümumi sənəd. Təyinatından irəli gələrək onda müxtəlif növ məlumatlar verilir. Onda tərəflər arasında razılaşdırılmış prinsiplər və strategiyalar formalaşdırılmışdır.

## Qolqofada balaca oğlan

Mənə o zamanlar elə gəlirdi ki, atam artıq yaşlı idi, otuz altı yaşında kənd ona həvalə edilmişdir – enlikürəkli, genişsinəli, belinə incə kəmər taxmış, padşah çəkmələrində. Onun ustalıqla hazırlanmış qamçısı vardı, yüngülcə güclü göydəmirin belinə aşırılırdı. Göycə onun ağırlığından dəli olur, gah o tərəfə qaçır, gah bu tərəfə qaçırdı, amma atam ona imkan vermirdi, onun öhdəsindən gəlirdi. Göycəyə bircə yüyəni gəmirmək qalırdı. Atam isə hamının yanında dayanmalı idi – bəzilərinə gülürdü, bəzilərinə qışqırırdı. Çəkib kiminsə qulağına nəysə pıçıldayır və pıçıldayan da pıçıltıya qulaq asan da bərkdən gülərdilər. Atamla birlikdə harasa gedəndə ürəyimiz sıxılırdı. Çünki həyətdə canlanma olur, hamı onun yolunu kəsir, hamı onun qamçısının sapı ilə gicgahını qaşıtdırardı.O, eyvandan lavaşlar və ölülərin ruhuna şərab uzadan yaşlı qadınlara yox deyə bilmirdi. Yaşlı qadınlar sağlıq söyləyəndə sevgi ilə atama baxardılar.

Bir dəfə bizim qoz ağacının altında uşaqlarla birlikdə dəyə qurmaq istəyirdik. Amma dirəkləri heç cür bərkidə bilmirdik. Atam ordan keçirdi və çətinlik çəkdiyimizi gördü, bizə yaxınlaşıb dirəyin birini götürdü və yerə elə bərkitdi ki, elə bil dirək yerə kök salmışdı. İkincini də, üçüncünü və dördüncünü də belə bərkitdi.

Onun qaralmış dişi də yadımda deyil. Əgər konfet gətirirdisə, çoxlu gətirərdi, "səpələyərdi". Əgər bizim nəyimizsə xoşuna gəlmirdisə, gücünü göstərərdi. Bibiləri, gəlinləri, nənələri sevərdi. Hamını ucadan salamlayar, hal-əhval tutardı. Onlar da onu sevərdilər. Bizim dəlimiz, sərsərimiz deyərdilər.

Qəflətən onu tutdular. Atamı da, babamı da, əmimi də tutdular. Ölkəni də tutdular. – Nəyisə səhv salırsınız, - sən demə, atam həmişə gülürmüş. – Baxarıq, kim səhv salır. Babam və əmim tezliklə türmədən



uzaqlaşdırıldılar, harasa uzaqlara itkin salındılar. Atam da itirdi, itirdi, heç kim bir şey bilmirdi, amma birdən peyda olurdu.Belə ki, səs gəzirdi ki, sağdır, yenə də Tbilisidədir. Biz də Tbilisiyə sığınmışdıq.

Bir ildən çox vaxt keçdi. Demək olar ki, tam soyuqlar, qaranlıq, pis havalar idi…. Noyabrın sonunda, qaranlıq düşəndə atamın uşaqlıq dostu Vano bizə, bizim otağımıza gəldi. Böyük, güclü kişi olan Vano sözünü zorla deyirdi: - sabah, səhər açılanda məhkəməyə gətirəcəklər. Hamınız gəlsəniz yaxşı olar. Sizi görüb hamınızın sağ-salamat olmağına inanardı. Nənəm ağlamağa başladı, böyük bacım da ağladı, amma anam yox. O, əllərini gicgahına qoyub gəzir, masanın üzərinə nə isə düzürdü. Vano əmi narahat idi, bir stəkan araq da içmədi, ayağa durdu – gedim, səhər saat beşdə sizi qaranlıq körpünün yanında gözləyəcəm. Beşdəmi?! Hə, onları tezdən gətirirlər.

Biz də tez yatmağa hazırlaşdıq, amma bacarmadıq. Kiçik qardaşım öskürür, boğulurdu. Heç düz-əməlli yuxunu yata bilmədik. Dörddə ayaqda idik.  Nənəm və balaca qardaşım gedə bilmədilər. Vano əmi həqiqətən də qaranlıq körpüdə bizi gözləyirdi. Bizə tərəf gəlmədi, eləcə bizdən öncə gedirdi. Ehtiyatla ora-bura baxırdı. Döngələrdə dayanır, sonra yenə də gedirdi. Bu sonu görünməyən yolda, qaranlıqda, ayaqlarım yorulmuşdu. Anam gah bir əlimi, gah da o biri əlimi əlləri ilə qızdırırdı. Sonda yenə də tam qaranlıqda, - gəldik. Həmin küçənin adı yadımda qaldı – Atarbeqov küçəsi. Böyük, kobud bir ev idi. Çox durmayıb gedirdik, gəlirdik, dururduq, dövrə vururduq. Yenə də gedirdik. Vano əmi ağacların arxasında dururdu. Gəlirdik, dururduq, gözləyirdik. Bir müddətdən sonra camaat hərəkət etməyə başladı. Böyük, kobud ev də işıqlandı. Onun qapısından kişilər, qadınlar içəri keçirdilər. Qapıdan milislər də çıxıb-girirdilər. Sonra səs eşidildi – gətirdilər, gətirdilər. Qaranlıqda qara maşın haqqında deyirdilər. O maşın da nə isə nasaz idi, bir təhər dayandı. Qapı açıldı, “naqan” üzərinə əlini qoymuş hərbi rəhbər maşından endi, maşının arxasına keçdi. Böyük evdən uzunsilahlı, çəkməli əsgərlər də töküldülər. Maşının arxa qapıları açıldı. Oradan da silahlı əsgərlər tullandılar, maşını mühasirəyə aldılar. Dustaqlar da maşından endilər,qaralar. Elə yerdəcə oturdular. “Naqanlı” rəhbər rusca nə isə söyləyirdi. Əbəs yerə atamı axtarırdım. Yerdə əyləşən məhbuslar da yalan yerə üzlərini o tərəf bu tərəfdə gizlədirdilər. – İrəli gedin, irəli gedin! – Vano əmi bizə səsləndi. İrəli getdik, dayandıq. Bizə qışqırdılar, geri qayıtdıq. Məhbusları ayağa qaldırdılar. Durdular: əsgər, məhbus, əsgər, məhbus. Tərpəndilər. Yavaş-yavaş gedirdilər.

- Sən də qaç içəri gir, - Vano əmi əmr etdi, - qapıda soruşsalar, de ki, xadimənin oğluyam, Tataraşvilinin. İçəri keç və böyük nərdivanlarda dur.

Mən qaçdım. Heç kim soruşmadı kim olduğumu. Gur işıqda böyük nərdivana çıxdım. Nərdivan ikiyə bölünürdü. Hara qalxmalı idim? Qərar verə bilmirdim. Kobud bir səs eşitdim, divara qısıldım. Bircə əsgərlər gəlirdilər – bir əsgər, bir məhbus, bir əsgər, bir məhbus. Lap yaxına

gəldilər. Bu yazıq məhbuslar arasında atamı heç axtarmırdım da, onlar ayaqlarını güclə sürüyürdülər. Biri lap tanınmaz halda idi, hər iki ayaqdan axsayırdı, balaca idi, qarşıdakı əsgərin kəmərindən dururdu.. Və bax bu balaca məhbus mənə tərəf baxmağa başladı, gülümsədi və əlini azacıq yuxarı qaldırdı. Geri dönüb yenə də mənə baxırdı. Mən diksindim, tanıdım, mənə nə isə pis baş verdi. O, pillədən pilləyə güclə qalxırdı, bir dəfə də yuxarıdan mənə gülümsəyərək baxdı…

Mən yerə oturdum. Onlar lap yuxarı qalxdılar. Başımın üstündə bir kişi dayanmışdı, nə isə soruşurdu, qalxdım, qaçıb həyətə cumdum. Anam da, bacım da ağlayırdılar. Böyük ağacın yanında duran Vano əmi də göz yaşlarını silirdi. Anam yanıma gəldi.

– Səni gördümü?

Mən heç nə demədim.

– Nə isə dedimi?

Mən yenə də heç nə demədim.

– Səsini çıxart!

– Nəə?

– Səsini çıxart. Nəsə dedimi?

– Nəə?

Anam yenə də ağlamağa başladı.

Mən yenə də susurdum, dişimi dişimə sıxıb özümü saxlayırdım.

. . . . . . . . .

Sonda? Sonda isə onu deyə bilərdim ki, mənə gülümsədi. İki və ya üç dəfə gülümsədi, geri dönərək də gülümsədi, amma mən o təbəssümü təbəssüm adlandırmazdım. O idi…. O, nə isə demək istəyirdi: - bax, nəyə bənzəyirəm mən. Görürsənmi? Görürsənmi? Mən yarıminsan olmuşam, özümün üçdə birinə dönmüşəm, mən… Yuxarı çıxdı və orada yox oldu, səmaya qərq oldu..

Siz də bilirsiniz ki, heç yerdə heç bir vaxt övladlar bu barədə valideynləri ilə danışmırlar.

Revaz İnanişvili

**Hekayəni oxuduqdan sonra suallara cavab verin:**

- Harada görünür ki, totalitar dövlətdə dostluq, mərhəmətdə qadağan olunur?
- Düşünün, oğlanın atasının, oğlanın özünün, ailə üzvlərinin hansı hüquqları pozuldu?
- Hekayədən totalitar dövlətin insanı hansı vəziyyətə saldığına dair misallar gətirin.

## Layihə üzərində iş



Siz ön sözdə nəzəri biliyin təcrübədə tətbiq edilməsinin nə dərəcədə vacib olduğu ilə tanış oldunuz.Qarşıya qoyulan məqsədi isə məhz layihələrin vasitəsilə həyata keçirə biləcəksiniz. Layihənin hazırlanması və həyata keçirilməsi problemin həllində sizə yardım edəcəkdir. Hər bir dərsdə layihənin hazırlanmasının bir pilləsini nəzərdən keçirəcək və evdə hər mərhələ üçün lazımi işi həyata keçirəcəksiniz. Layihə üzərində işlədikdə öz fikirlərinizi ifadə edə biləcək, seçdiyiniz problemin həlli üçün hansı hökumət və ya qeyri-hökumət təşkilatına müraciət etməyi qərara alacaqsınız. Seçdiyiniz problemin hökumət səviyyəsində strateji həllinə necə nail olmağı öyrənəcəksiniz. Unutmayın ki, siz sinif yoldaşları ilə, müəllimlərlə, həvəskarla, müxtəlif hökumət strukturu və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etməlisiniz.

## Layihə üzərində işin pillələri:

1. İlk növbədə, cəmiyyətinizdə mövcud olan mühüm problemləri axtarıb tapın; müəyyənləşdirin ki, bu problemin həllində hansı hökümət strukturu məsuliyyət daşıyır;
2. Layihə üçün mühüm problemi seçin;
3. Seçilən problemlə əlaqədar əlavə informasiya tapın. Məsələni yaxşı öyrənmək üçün araşdırma aparın;
4. Problemin həllinin strateji planını hazırlayın;
5. Əldə edilən informasiyanı layihə şəklində formalaşdırın (layihə üzərində iş prosesində toplanılmış materialdan, **portfolio**-dan istifadə edin);
6. Sonda layihənin təqdimatını həyata keçirəcək və işə başlayacaqsınız....

**Layihənin hazırlanması üçün lazımi suallar:**

Nə? – məqsəd

Necə? – məsələlər

Kim? – iştirakçılar

Nə zaman? – müddətlər

**Həmçinin yadınızda saxlayın!**

Layihə olmalıdır – spesifik, ölçülü, əldə edilən (yerinə yetirilən), real, zamanda müəyyənləşdirilmiş.

**L ü ğ ə t**

İcma-iki və ya bir neçə qəsəbənin və ya kəndin sakinlərinin birliyi.

Portfolio – işlərin toplumu, bir növ qovluq. Portfolio şagirdin yerinə yetirdiyi ev və sinif tapşırıqlarından, qrup layihələrinin hesabatlarından və s. ibarət ola bilər. Portfolionun təyinatıdır ki, şagird materialı toplasın, öz işini özü qiymətləndirsin və hansı biliyi aldığını və seçilmiş mövzu üzərində iş prosesində hansı vərdiş-bacarıqları qazandığını dərk etsin. Portfolio imkan verir ki, şagird hansı səhvləri buraxdığını anlasın və gələcəkdə buna bənzər səhvlərin qarşısını ala bilsin.



## Layihə üzərində iş - I pillə;
## İcmanızda olan problemin müəyyənləşdirilməsi

**Birinci pillənin təsviri:**

Bu pillənin məqsədi ondan ibarətdir ki, sinif yoldaşlarınız və icmanızın nümayəndələri ilə birlikdə ümumi səylərlə icmanızda olan problemləri axtarmalı və onlarla əlaqədar nəyi bildiklərinizi bir-birinizlə bölüşməlisiniz. Bu, sizə layihə təklifləri üçün lazımi problemi düşünərək seçməyinizdə, lazımi informasiya almağınızda yardım edəcəkdir. Eləcə də layihə üzərində işin bu mərhələsində bu problem üzərində məsuliyyətin hansı hökumət strukturunundaşıdığını müəyyənləşdirməlisiniz.

1. 4-5 nəfərlik qruplara bölünün.
2. Məktəbinizdə, icmanızda, məhəllənizdə mövcud **aktual** problemləri tapın. Problemləri növbəti kateqoriyalardan seçə bilərsiniz:
   - icmada olan problemlər;
   - ümumi, ictimai problemlər;
   - məktəbdəki problemlər;
   - həmyaşıdlarınızın problemləri.
3. İnformasiyanı qrupda yoxlayın ki, seçilən problem haqqında nəyi bilirsiniz və onun haqqında nəyi öyrəndiniz.Həll olunası problemlə əlaqədar valideynlərinizlə, qonşularla, qeyri-hökumət təşkilatları ilə müsahibələr aparın. Seçilmiş problem haqqında nəyi bildiklərini və qeyd edilən məsələ ilə əlaqədar hansı münasibətlərinin olduğunu araşdırın.
4. İnformasiya toplamaq üçün aşağıda verilən müsahibə suallarından istifadə edin.
5. Əldə edilən materialı toplayın ki, sonra onları portfolioda yerləşdirə biləsiniz. Məhz portfoliodakı materiala əsaslanaraq layihəni tərtib edin.

Aşağıda problemin müəyyənləşdirilməsinin və analizinin, müsahibənin və media-vasitələrinin müşahidə formaları verilir. Onlar həm qrup, eləcə də, fərdi iş üçün, həm informasiyanın toplanılma prosesində, həmçinin bu informasiyanın qarşılıqlı anlanılmasında lazım gələcəkdir.

**Lüğət**

Aktual – çox mühüm, önəmli.

**Problemin eyniləşdirilməsi və analizi forması**

Qrup üzvlərinin adları ----------------------------------------------------------------------------
Tarix ------------------------------------------------------------------------------------------------
Problemin adı -------------------------------------------------------------------------------------

1. Siz və ya icmanızın digər üzvləri bu problemi əhəmiyyətli problem kimi hesab edirsinizmi?
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------

2. Bu problemin həllində hökümətin hansı orqanı və ya şəxsi məsuliyyət daşıyır? -----------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------

3. Hökumət nə edir, bu problemin həllinə necə qayğı göstərir? --------------------------------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------

Əgər hökumət bu problemin həllinə qayğı göstərirsə, növbəti suallara cavab verin:

- Hökumət tərəfindən bu problemlə əlaqədar keçirilən siyasətin hansı müsbət və mənfi tərəfləri var? ------------------------------------------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------
- O, necə yaxşılaşdırıla bilər? ------------------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------
- Necə düşünürsünüz, qeyd edilən problemə qarşı hökumətin yanaşması, siyasəti dəyişməlidirmi və ya yox? Nə üçün? ----------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------
- Bu problemə qarşı hökumət siyasəti haqqında icmanın münasibəti necədir? -----------------
  -----------------------------------------------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------
  -----------------------------------------------------------------------------------------------

4. Bu problem və onunla əlaqədar müxtəlif qrupun və ya ayrı-ayrı şəxslərin mövqeləri barədə daha çox məlumatı harada əldə etmək olar? -----------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------

5. Sinifdə təhlil üçün maraqlı olaniictimaiyyətdəki digər problemləri adlandıra bilərsinizmi? Sadalayın. ---------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------
-----------------------------------------------------------------------------------------------------

**Müsahibənin forması**

Ad ----------------------------------------------------------------------------------------------------
Tarix -------------------------------------------------------------------------------------------------
Problemin adı ---------------------------------------------------------------------------------------

1. Respondentin adı -------------------------------------------------------------------------------
İcmada onun rolu və mövqeyi ---------------------------------------------------------------------
(Məs., biznesmen, təqaüdçü, valideyn, şagird, həvəskar) Qeyd: Əgər bu şəxsiyyət öz adını açıqlamaq istəmirsə, o zaman onun yalnız rolunu və mövqeyini göstərin.

2. İlk növbədə, respondenti hansı problemi araşdırdığınızla tanış edin. Sonra suallar verin və alınan cavabları yazın.

a. Qeyd edilən problem əhəmiyyətlidirmi və ya yox? Niyə? ------------------------------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------

b. Sizin fikrinizcə, icmanın digər üzvləri bu problemin əhəmiyyətli olduğunu hesab edirlərmi?
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------

c. Hökumət nə edir, bu problemin həllinə necə qayğı göstərir? -----------------------------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------

- Bu problemlə əlaqədar hökumət tərəfindən keçirilən siyasətin hansı müsbət tərəfləri var?
  ----------------------------------------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------
- Bu problemlə əlaqədar hökumət tərəfəndən keçirilən siyasətin hansı mənfi tərəfləri var?
  ----------------------------------------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------
- Onu necə yaxşılaşdırmaq olar? --------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------
- Necə düşünürsən, qeyd edilən problemə qarşı hökumətin yanaşması, siyasəti dəyişməlidirmi və ya yox? Nə üçün? ----------------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------
- Bu problemə qarşı hökumətin siyasətinə icmanın münasibəti necədir? --------------------------
  ----------------------------------------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------
  ----------------------------------------------------------------------------------------------------

d. Bu problem və onunla əlaqədar müxtəlif mövqelər barədə daha çox məlumatı harada əldə etmək olar? --------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------

**Media vasitələriüzrə müşahidə forması**

Adı ----------------------------------------------------------------------------------------------------
Soyadı ------------------------------------------------------------------------------------------------
Vaxt ---------------------------------------------------------------------------------------------------
Problemin adı ----------------------------------------------------------------------------------------

1. İnformasiya vasitəsi (bu,qeyd edilən problemə aid olan televiziya və ya radioverilişi, sənədli proqram, müsahibə və ya hər hansı bir başqa nə isə ola bilər) ----------------------------------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------

Verilişə baxdıqda növbəti sualları nəzərə alın:

2. Qeyd edilən problem mühüm problem kimi göstərilmişdirmi və ya yox? Niyə? ------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------

3. Hökumət nə edir, bu problemin həllinə necə qayğı göstərir? ------------------------------------
----------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------

- Bu problemlə əlaqədar hökumət tərəfindən keçirilən siyasətin hansı müsbət tərəfləri var?
  ------------------------------------------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------
- Bu problemlə əlaqədar hökumət tərəfəndən keçirilən siyasətin hansı mənfi tərəfləri var?
  ------------------------------------------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------
- Onu necə yaxşılaşdırmaq olar? -------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------
- Necə düşünürsən, qeyd edilən problemə qarşı hökumətin yanaşması, siyasəti dəyişməlidirmi və ya yox? Nə üçün? ---------------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------
- Bu problemə qarşı hökumətin siyasətinə icmanın münasibəti necədir? ------------------------
  ------------------------------------------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------
  ------------------------------------------------------------------------------------------------------

# Mövzu 2



# Fəal vətəndaşlıq və vətəndaş cəmiyyəti (demokratik cəmiyyətin xüsusiyyətləri)



# Mövzu 2

# Fəal vətəndaşlıq və vətəndaş cəmiyyəti (demokratik cəmiyyətin xüsusiyyətləri)

**Lüğət**

Plüralizm – fikir müxtəlifliyinin olması və onların tanınması.

Nihilizm – hər şeyə soyuqqanlı yanaşma.



## Dərs 2

Bu fəsildə tanış olacaqsınız ki, vətəndaş cəmiyyətinin aktiv üzvünün hansı bilik və vərdiş-bacarıqları olmalıdır. Vətəndaşların dinc yaşamaları üçün əhəmiyyətli xüsusiyyətləri – bərabərlik və **plüralizmi** dərk edəcəksiniz.

İlk növbədə, vətəndaşlığın nə demək olduğuni müəyyən etməlisiniz. Vətəndaş anlayışının izahatı çoxtərəflidir. Hüquqi baxımdan, vətəndaş - şəxsiyyətdir. Onun vətəndaşlığını və siyasi hüquqlarını yaşadığı dövlət qoruyur. Eləcə də, vətəndaşların dövlətin qarşısında öhdəlikləri var və onların arasında ən əsası ölkə qanunlarını qorumaq, məcburi hərbi xidmət, vergi ödəmək və sairədir.

Tarixən də, hal-hazırda da vətəndaşlıq anlayışının əsas mənası şəxsiyyət tərəfindən hüquqlarının istifadəsi və vəzifələrinin yerinə yetirilməsidir. İnsan və vətəndaşlar arasında əsas fərqi unutmayın ki, insana doğulduğundan hüquqlar verilir, vətəndaşa isə hüquqlarından əlavə vəzifələr də həvalə olunur.

Təəssüflər olsun ki, bir sıra ölkələrdə müasir vətəndaş cəmiyyətdə baş verən proseslərdə aktiv iştirak etmir. Əsasən onun iştirakı seçkilərdə səs verməklə əhatə olunur, bəzən isə bunu da etmir. Belə bir **nihilist** yanaşma demokratiyanın inkişafına mane olur.

İctimai fəal vətəndaş müxtəlif ictimai işlərə cəlb olunmalı, ölkədə, şəhərdə, icmada baş verən proseslərlə maraqlanmalı, cəmiyyət üçün mühüm məsələlər barədə sualları ucadan verməlidir. İnkişaf etmiş demokratik ölkələrdə aktiv vətəndaşlar vətəndaş cəmiyyətinin müxtəlif təsisatlarında birgə iştirakları ilə yerli və mərkəzi səviyyədə hökumətə monitorinq keçirir, cəmiyyətin və hökumətin diqqətini mövcud problemlərə yönəldir, fikirlərini ifadə

etmək üçün media-vasitələrindən,ictimai çıxışlardan və dinc aksiyalardan fəal istifadə edirlər.

Bu xassələri olan vətəndaşlardan ibarət sosium vətəndaş cəmiyyətini təqdim edir. Vətəndaş cəmiyyəti fərdlər tərəfindən əsası qoyulmuş, özünüidarəetmə və vətəndaşlar tərəfindən könüllü formalaşdırılmış assosiasiyaların və təşkilatların birliyidir. Onların fəaliyyəti dövlət tərəfindən birbaşa müdaxilə edilmədən qanunla qorunur. Dövlətin haqqı yoxdur ki, onların fəaliyyətlərini özbaşına məhdudlaşdırsın.

Məktəbin, ailənin, cəmiyyətin həyatına hansı töhfələri verdiyinizi fikirləşin.

Ölkədə güclü vətəndaş cəmiyyətinin formalaşması üçün sizlərdən hər biriniz ictimai cəhətdən fəal vətəndaş olmalısınız. Bunun üçün demokratik dövlətə xas olan əlamətləri yaxşı bilməlisiniz.

Demokratik dövlətin xarakterik əlamətləridir:

bərabərlik, qanunun aliliyi, müstəqil məhkəmə sistemi, azad, ədalətli seçkilər, hökumətin şəffaflığı, hökumətin müstəqil şaxələrə bölünməsi, müstəqil media, insan hüquqlarının və azlıqların hüquqlarının qorunması, plüralizm.

Hər bir xüsusiyyəti ayrı-ayrılıqda izah edək.

Fikirləşin və hər hansı bir əlamətlə fərqləndiyinə görə şəxsiyyətin hüquqlarının məhdudlaşdırıldığı bir misalı yadınıza salın. Necə düşünürsünüz, nə üçün? Diskriminasiyanın qarşısını almaq mümkün idimi və ya yox?

Bərabərlik etnik mənsubiyyətlərinə, yaşlarına, cinslərinə, dini etiqadlarına, bacarıqlarına və s. baxmayaraq bütün insanların hüquqlar və qanun qarşısında bərabərliyini nəzərdə tutur. Bütün insanların hüquqları qorunmalıdır, çünki onlar doğulduqlarından bərabərdirlər.

Demokratik cəmiyyətdə uşaqlar, qadınlar, yaşlılar, **emiqrantlar, məhdud imkanlı şəxslər, milli azlıqlar** kimi qruplar **diskriminasiyaya** məruz qalmırlar. Bu onu bildirir ki, onların hüquqları məhdudlaşdırılmır, əksinə onlara öz fərdiliklərini üzə çıxarmaqlarına və ictimai həyata cəlb olunmaqlarına yardım

## Lüğət

Emiqrant –daimi yaşayış üçün başqa dövlətə köçüb gedən şəxs.

Məhdud imkanlı şəxs – xəstəlik, travma, əqli və ya fiziki qüsuru nəticəsində sağlamlığı az-çox pozulduğuna görə orqanizminin həyat funksiyaları pozulan məhdud imkanlı şəxs. Bu da peşəkar əmək qabiliyyətinin tam və ya qismən itirilməsinə və ya məişət həyatının mühüm şəkildə çətinləşməsinə səbəb olur və əmək qabiliyyətinin müvəqqəti və ya ömürlük məhdudlaşdırılmasına və sosial cəhətdən müdafiə olunmaq tələbatına gətirib çıxarır (Tibb, sosial ekspertiza haqqında Gürcüstan qanununu, Ümumi nizamnamə, maddə 3).

Milli azlıqlar – verilən ölkədə daim yaşayan əhalinin qeyri-dominant hissəsi. Bu hissə əhalinin əksəriyyətindən öz etnik, dini və ya linqvistik xüsusiyyətləri ilə seçilir və öz varlığını qoruyub saxlamağa çalışır.

Diskriminasiya – ayrı-ayrı şəxslərin və ya qrupların hüquqlarının məhdudlaşdırılması və ya onlara əsassız şəkildə mənfi yanaşma.





göstərilir. Demokratik cəmiyyət vətəndaşların maksimum bərabərliklərini təmin edir.

Eləcə də demokratik ölkədə qanunun aliliyi əhəmiyyətlidir.

Qanun qarşısında hamı bərabər olmalıdır. Demokratik mühitdə qanunun aliliyi ədalətə səbəb olur.

Qanun insanı məhdudlaşdırır – ona müəyyən vəzifələr və məsuliyyətlər verir. O, eyni zamanda insanı ədalətsizlikdən qoruyur. Xüsusilə qeyd etmək lazımdır ki, demokratik dövlət üçün əhəmiyyətli xüsusiyyətlərdən biri müstəqil məhkəmə sistemidir. Məhkəmə vasitəsilə digər iki hakimiyyət – qanunverici və icraçı hakimiyyət məhdudlaşdırılır; eləcə də - vətəndaşın konstitusiya hüquqlarının müdafiəsi. Demokratiyanın mühüm tapıntısının azad seçkilər olduğunu yadda saxlamaq lazımdır. Seçkilərdə iştirak etmək hüququ olan insanların maneələrsiz və təsir xaricində istədikləri namizədlərə səs vermək imkanları olduqda azad seçkilərdə o zaman həyata keçirilir. Azad seçkilərin nəticələri **elektoratın** istəyini düzgün əks etdirməlidir. Bütün beynəlxalq prinsiplər hər bir insanın hüququnu nəzərdə tutur ki, öz dövlətinin idarəetməsində azad iştirak etsin.

**Lüğət**

Elektorat –müxtəlif səviyyəli seçkilərdə iştirak edə və hər hansı bir qrupun tərəfini tuta bilən insan.

Rəngarənglik –cəmiyyət üçün əhəmiyyətli məsələlərə aid olan qərarların qəbul edilməsində bütöv cəmiyyətin və icmanın, azlıqlar qrupununədalətli şəkildə iştirak etməsi.

Demokratiyanın daha bir əhəmiyyətli xüsusiyyəti plüralizm və **rəngarənglikdir**. Rəngarənglik həyat qaydasının, fikirlərin və maraqların müxtəlifliyini bildirir. Plüralist cəmiyyət üzvlərinin şəxsi azadlıqları var, amma onlar eləcə də razılıq əldə etmək və ümumi məqsədlərə nail olmaq üçün qarşılıqlı güzəşt yolu ilə bir-birləri ilə aktiv şəkildə əməkdaşlıq etməli olurlar.



Plüralizmin tərkib elementləridir: rəngarəngliyə (ənənələrə, dini etiqada, mənəvi dəyərlərə və s.) hörmətlə yanaşmaq, şəxsi hüquqları müdafiə etmək, siyasi şəffaflıq, qərar qəbul etmə prosesində vətəndaşların iştirakı, vahid məqsədə nail olmaq üçün razılıq yollarının axtarılması.

Peşəkar, müstəqil media insanların bərabərliyinə, qanunun aliliyinə, plüralizmə, hüquqların müdafiəsinə əhəmiyyətli şəkildə dəstək verir. O, əhali üçün aktual mövzular üzrə diskussiyaların keçirilməsinə imkan yaradır, hansında vətəndaş cəmiyyətinin üzvlərinə onlar üçün əhəmiyyətli məsələlərin təhlilində iştirak etmək imkanı verilir. Müstəqil media fikir ifadəsinin azadlığını təmin etməlidir. Bu onu nəzərdə tutur ki, vətəndaşın öz nəzərlərinə əsasən ölkədə qüvvədə olan qanunvericiliyə zidd olmayan şifahi, yazılı və ya digər şəkildə hər hansı bir informasiyanı axtarmaq, almaq və yayımlamaqhüququ var.



Demokratiyanın ən əhəmiyyətli elementi hökümət təsisatlarının şəffaflığıdır. Yəni cəmiyyət bilməlidir ki, hökümət bu və ya digər qərarı nə üçün qəbul edir, hər bir vətəndaş tərəfindən ödənilən vergilərdən ibarət olan dövlət büdcəsi necə xərclənir.

Aktiv vətəndaş olmaq üçün ictimai işlərdə iştirak edə, problemi görə və onun həlli yollarını axtara bilməlisiniz. Qərarların qəbulu prosesində cəmiyyətin iştirakı dövlət və ictimai təşkilatlar arasında aktiv əməkdaşlığa imkan yaradır. İctimai cəlb olunma təsisatlara cəmiyyətin maraqlarını nəzərə almaqda yardm edir. Vətəndaşın ölkənin və cəmiyyətin inkişafı fəallıqlarında könüllü iştirakı insana öz tələbatlarını, problemləri, rolları və məsuliyyətləri dərk etməkdə kömək edir. Öz rolunun əhəmiyyətini dərk etmək insanda özünə inamı artırır və öz təşəbbüsü ilə problemin həllinə doğru təkan verir.

Fərdi və ictimai səviyyədə iştirak etmək üçün növbəti vərdiş-bacarıqlar işlənib hazırlanmalıdır: əməkdaşlıq, qayğı, sədaqət, liderlik, mətanət, hörmət, cəsarət, vicdanlılıq, məsuliyyət.

Fikirləşin, yuxarıda verilən hər bir xassəni xarakterizə edin. Bu xassələrə nə dərəcədə sahibsiniz? Bu xassələri necə inkişaf etdirmək lazımdır? Düşündüklərinizi cüt yoldaşınızla paylaşın.

**Tapşırıq 1**

Bu fəsildə alınan biliyin mənimsənilməsinin ən yaxşı vasitəsi diskussiya üçün bacarıqları inkişaf etdirməkdir. Bunun üçün diskussiyanın aparılma üsulları ilə tanış olun və növbəti tapşırığı yerinə yetirin:

10-12 nəfərlik qruplara bölünün. Hər bir qrup ikiyə bölünür: nəzərin tərəfdaşlarına və opponentlərə. Təhlil üçün mövzu seçin və diskussiya vasitəsilə qərar qəbul etməyə çalışın. Ehtimal olunan mövzulardır:

– valideynlərimiz bizi düzgünmü böyüdürlər və biz övladlarımızı necə böyüdəcəyik?
– vətəndaş cəmiyyəti siyasətə təsir göstərə bilərmi və ya yox?
– televiziyadan hansı müsbət və mənfi tərəfləri öyrənirik.

**Nəzərə alın: Tapşırıq 1-i yerinə yetirdikdə diskussiyanın aparılması üçün üsullara riayət edin:**

1. Diskussiyanın məqsədlərini hər zaman yadınızda saxlayın – həqiqəti, çıxış yolunu tapmalı, problemi həll etməlisiniz.

Yalnız verilən mövzu ilə əlaqədar olan məsələləri təhlil etməlisiniz.

Boş-boş xatirələri, kədərli əhvalatları, dəqiq olmayan müqayisələri ədəblə dayandırın.

Çalışın ki, mövzudan kənara çıxmayasınız. Eləcə də yol verməyin ki, tərəflər üstünlüklərini sübut etsinlər. Qələbəyə deyil, həqiqətə tərəf can atın.

2. Başqa insanların nəzərlərinə hörmətlə yanaşın. Hər hansı bir fikir konkret insanın fikridir. Sizin fikrinizdən fərqləndiyinə baxmayaraq onun həmin fikrinin olmasına hüququ var. Başqalarını incitməyin və onların fikirlərini yanlış, qeyri-məqbul, gülməli adlandırmayın. Diskussiya bitməyənə qədər hər bir nöqteyi-nəzər qəbul edilən ola bilər. Diskussiyanın sonunda tamamilə qeyri-məqbul nöqteyi-nəzər də düzgün ola bilər.

3. Hər bir söylənilən fikir, nəzər dəlillərlə sübut olunmalıdır. Diskussiya məhz bununla müzakirədən fərqlənir. Həmsöhbət bu və ya digər fikri nə üçün düzgün hesab etdiyini faktlarla sübut etməlidir. Mən belə düşünürəm, mənə elə gəlir ki, hər zaman belə idi kimi ifadələr sübut hesab edilmir.

4. Hər bir insanın fikrinə hörmətlə yanaşın.

Bəzən məşhur, nüfuzlu bir insanın fikri məhz bu şəxsiyyətin statusundan irəli gələrək (professor, tədqiqatçı)elə əvvəlcədən düzgün hesab edilir. Onları dinləyin, amma real faktlara söykənin. Həll olunmayan problemlə əlaqədar yeni yanaşmalar axtarın.

5. Səmimiyyət tonunu qoruyub saxlayın.

6. Həmsöhbətinizə adı ilə və ya hər hansı bir ədəbli forma ilə müraciət edin (kolleqa, opponent). Opponent sizin düşməniniz deyil. O, fərqli nəzəri olan bir insandır. Həmsöhbətinizi təhqir etməyin.

7.Boş boş mübahisə xatirinə mübahisə etməyin. Diskussiyanın mübahisəyə keçməsinə və münasibtlərin araşdırılmasına yol verməyin. Unutmayın ki, mübahisənin məqsədi həqiqətin sübut olunmasıdır, diskussiyanın isə - düzgün qərarı tapmaq, vəziyyətdən çıxışdır.

**L ü ğ ə t**

Opponent – mübahisə zamanı fərqli fikri olan insan.

## T a p ş ı r ı q 2

Təsəvvür edin ki, icmanızda, şəhərinizdə, kəndinizdə məhəllənizdə asudə vaxtı keçirmək üçün heç bir vasitə yoxdur. Asudə vaxtın təşkili ilə heç kim maraqlı deyil. Daha doğrusu, məhəllədə yalnız totalizator var. Bunun üçün də gənclərin əksəriyyəti küçədə boş-boş durmaqla və ya totalizatorda oyunla vaxtlarını keçirirlər.
Boş vaxtın bu cür keçirilməsi zorakılıq təhlükəsini, sağlam olmayan həyat qaydasını, narkomaniyanın, alkoqolizmin bərqərar olması təhlükəsini yaradır.

- Qruplara bölünün və düşünün ki, icmanızda asudə vaxtı necə təşkil etmək olar?
- İctimai təşkilat yaratmaq ehtiyacı varmı və onun strukturu necə olmalıdır?
- Problemin həllində icmanızda artıq mövcud olan təşkilatlar sizə yardım edə bilərlərmi?

## T a p ş ı r ı q 3

Valideynlər övladlarını üzgüçülüyə apardılar. Onlar uşağın fikri ilə heç maraqlanmadılar da. Yeniyetmənin maraq dairəsi isə futbol idi.

Təhlil edin ki, valideynlər övladlarının marağını nə üçün nəzərə almadılar?
Nə üçün yeniyetmə öz həyatının planlaşdırılmasında iştirak etmədi?
Valideynlər nə üçün belə hərəkət etdilər?
Valideynlər nə üçün belə etməli idilər?
Müzakirə edərkən şəxsi və ictimai iştirak üçün lazımi mərhələləri nəzərə alın:

- vəziyyətin analizi;
- tələbatın dəyərləndirilməsi;
- məqsədlərin qarşıya qoyulması;
- konkret fəallıqların müəyyənləşdirilməsi;
- resursların səfərbər edilməsi;
- həyata keçirmə;
- qiymətləndirmə.

## Tapşırıq 4

Bir ailədə üç müxtəlif yaşlı uşaq böyüyürdü. Onların yalnız bir televizorları var idi. Tez-tez onların arasında xoşagəlməz hallar baş verirdi, çünki başqa-başqa verilişlərə baxmaq istəyirdilər. Münaqişə bəzən əlbəyaxa davaya da keçirdi. Onlardan biri problemi həll etdi, televizora baxmadı.

Diskussiya üçün suallar: qız düzgünmü qərar qəbul etdi? Əsaslandırın;
Necə düşünürsünüz, problem həll olundumu və ya yox?
Qızın kənarlaşmasına səbəb nə idi?
Necə düşünürsünüz, qız necə hərəkət etməli idi?
Problemi necə həll etməyi və qərar qəbul etməyi unutmayın:

- problemi müəyyən etmək lazımdır;
- qarşıya məqsəd qoymaq lazımdır;
- problemin həllinin alternativ yollarını tapmaq lazımdır;
- ehtimal olunan nəticələri nəzərə almaq lazımdır;
- ən yaxşı çıxış yolunu seçmək lazımdır.

Qız problemin həllinin bu yolundan istifadə etsəydi, necə hərəkət etməli idi və hansı nəticəni ala bilərdi?

Qız plüralizm anlayışını bilsəydi necə hərəkət edərdi?

## Tapşırıq 5

Məktəbinizdə, icmanızda, qonşu azlıqlarda və ya sosial cəhətdən təminatsız olan qrupları və onların problemlərini aşağıda verilən cədvələ yazın.

| Azlıq | | |
|---|---|---|
| Cəmiyyətdə | Qonşuluqda | Məktəbdə |
| | | |

**Suallara cavab verin:**

Onların hansı problemləri var?
Cəmiyyət azlıqların problemlərini həll etmək üçün nə edir?
Siz onların problemlərini necə həll edərdiniz?

**L ü ğ ə t**

İnsan hüquqlarının ümumi bəyannaməsi – BMT-nin Baş Assambleyası tərəfindən 1948-ci ilin dekabrın 10-da qəbul edilmişdir və həm mülki və siyasi, eləcə də iqtisadi, sosial və mədəni hüquqlara aiddir. Xüsusilə də bəyannamə ilə yaşamaq haqqı, şəxsi toxunulmazlıq hüququ və s. kimi hüquqlar nəzərə alınmışdır.

**T a p ş ı r ı q 6**

**"Hüquq-vəzifələr"**

- Necə fikirləşirsiniz, qaydalar və vəzifələr arasında hansı fərqlər var?
- Hüquqlar və qaydalar arasında hansı əlaqə var?
- Kimsə hər hansı bir qanunu pozarsa, o zaman nə baş verəcəkdir?
- Sizin fikrinizcə, sinifdə şagirdlər tərəfindən işlənilib hazırlanan qaydalar hansı müsbət nəticələri verirlər? İki belə bir misal gətirin.
- Müəyyənləşdirin ki, məktəbinizdə tərtibatında məktəbin şagirdləri iştirak etdiyi şagirdlərlə əlaqədar hər hansı bir qaydalar, təlimatlar və ya prosedurlar varmı?
- Onlarla razılaşırsınızmı və ya yox?
- Onları dəyişmək olarmı və ya yox? Necə?
- İnsanlar qaydalara riayət etmədikdə nə baş verir?
- Hər bir hüququn ətrafında qeyd edin ki, hər insana konkret olaraq nə tapşırılır ki, hər bir insan bu hüquqdan faydalansın.

**Məsələn:**

(Bu hüquqlar **insan hüquqlarının ümumi bəyannaməsi** ilə qorunurlar)

| Hüquqlar | Vəzifələr |
|---|---|
| Hər bir kəsin hüququ var ki, ona ədalətlə davranılsın; | Mənim vəzifəmdir ki, hamıya ədalətlə davranım; |
| Hər kəsin fikrini ifadə etmək azadlığı var... | Hamıya fikrini ifadə etmək imkanını verməliyəm.. |

| Hüquqlar | Vəzifələr |
|---|---|
| Yaşamaq hüququ;<br>Əzabdan azad olmaq;<br>Kölәlikdən azad olmaq;<br>Azadlıq və təhlükəsizlik hüququ;<br>Qərəzsiz mühakimə hüququ;<br>Hüquqlar pozulduğu halda, yardım qəbul etmək hüququ;<br>Diskriminasiyadan azad olmaq; bərabərlik hüququ;<br>Şəxsiyyət kimi tanınma hüququ;<br>Milli mənsubiyyət hüququ;<br>Əmlaka sahib olmaq hüququ;<br>Yerdəyişmə hüququ;<br>Sığınacağı olmaq hüququ;<br>Təfəkkür, anlayış və din hüququ;<br>Toplantılar və digər şəxslərlə birləşmə azadlığı;<br>Yemək, içki və yaşayış yeri hüququ;<br>Səhiyyə hüququ;<br>Təhsil hüququ;<br>İşlə təmin olma hüququ;<br>İstirahət və əyləncə hüququ;<br>Sosial müdafiə hüququ;<br>Siyasi proseslərdə iştirak etmək hüququ;<br>İnsan hüquqlarının pozulmasına qadağa;<br>İnsan hüquqlarının tanındığı yerdə sosial qayda-qanun hüququ. | |

## Layihə üzərində iş – II pillə: Layihə təklifləri üçün problemin seçilməsi

**İkinci pillənin təsviri:**

Layihə üzərində işin ikinci pilləsində hər bir qrup təqdim etməlidir ki, icmada mövcud olan problemlər haqqında hansı məlumatları toplamışdır. Bütün sinif təqdim edilən problemləri təhlil edir, müzakirə edir ki, alınan informasiya layihə təklifi üçün uyğun problemi seçməyinizə kifayət edirmi.

Sinif diskussiyasının vasitəsilə təhlil edin ki, layihə təklifi üçün lazımi problemi seçməyə kifayət qədər məlumatınız varmı və ya yox?

Əgər sinif düşünürsə ki, əldə edilən informasiya qərar qəbul etmək üçün kifayətdirsə, səslərin əksəriyyəti ilə təhlil olunası problemi seçin. Suallar verin və yoxlayın ki, seçilmiş problem sizin üçün və eləcə də icma üçün həqiqətən də mühümdürmü. Bu problemlə əlaqədar maraqlı materialı seçməyin, portfolio hazırlamağın mümkün olmasına əmin olun.

Layihə təklifi üçün lazımi problemi seçdikdən sonra düşünün ki, qeyd edilən problem haqqında əlavə məlumatı harada axtarmaq olar.



# Mövzu 3



# Diskriminasiya və bərabərlik – hamı fərqlidir, hamı bərabərdir



# Mövzu 3

# Diskriminasiya və bərabərlik – hamı fərqlidir, hamı bərabərdir

## Dərs 3

Ötən dərsdə siz vətəndaş cəmiyyətinin xüsusiyyətləri ilə tanış oldunuz, aktiv vətəndaş üçün lazımi bacarıq-vərdişləri mənimsədiniz, layihə üçün icmanızda mövcud problemi seçdiniz.

Bu dərsdə diskriminasiyanın səbəbləri və onların qarşısının alınma vasitələri ilə tanış olacaqsınız.



**Diskriminasiya** fərqlənməni bildirir, amma bu anlayışın daha mürəkkəb məzmunu var. O, insanların fərqləri əsasında onlar arasında ədalətsiz yanaşmanı, zorakılığı, təqib etməni, didərgin salmanı, qadağaları, sıxışdırılmanı nəzərdə tutur.

Diskriminasiya anlayışının mahiyyətini dərk etmək məqsədilə demokratik dövlətin vətəndaşının əsas dəyəri ilə sizi tanış edirik – tolerantlıqla, bu anlayış tez-tez demokratiyanın sinonimi kimi də istifadə olunur.

Tolerantlıq anlayışı başqa-başqa mədəniyyətdə, onların tarixi həqiqətlərindən irəli gələrək fərqlidir. Gürcü dilində tolerantlığın sinonimi dözümlülükdür.

Gürcüstan öz tolerant münasibətilə tanınır. Burada əsrlər ərzində başqa-başqa dinin nümayəndələri birlikdə dinc yaşayırlar. Pravoslav, erməni, katolik məbədləri, yəhudi sinaqoqu, müsəlman məscidlərinin bir-birinin yanında yerləşməsi bunun bariz nümunəsidir.

Zamanla dünya mədəniyyətləri arasında mövcud tolerantlığın əxlaqi dəyərlərinə siyasi və hüquqi tələblər əlavə olundu və "Tolerantlıq prinsiplərinin bəyannaməsi" hazırlandı və onun əsasında tolerantlıq -dünyanın rəngarəng mədəniyyətlərinin, bu mədəniyyətlərdəki müxtəlif dəyərlərin ifadə olunma formalarını, fərqli insanlara hörmət göstərilməsini və onların tanınmasını bildirir. Tolerant insanın tərbiyə olunmasına təhsil, kommunikasiya, fikrin azad söylənilməsi bacarığı, dərk etmə və inam imkan verir.

Tolerantlıq fərqlərin harmoniyasıdır. O, təkcə mənəvi vəzifə deyil, eləcə də siyasi və hüquqi tələbdir. Tolerantlıq dəyərə bərabər olan yüksək əxlaqi vəzifədir. O, sülhə dəstək verir və müharibə mədəniyyətinin sülh mədəniyyəti ilə əvəz edilməsinə imkan yaradır. Qeyd edilən bəyannaməni 1995-ci ilin noyabrın 16-da dünyanın 185 ölkəsi qəbul etdi.



Unutmayın ki, tolerantlıq anlayışının "sütunu" insan hüquqlarına hörmət göstərilməsidir. Tolerantlıq plüralizmə və qanuniliyin bərqərar olunmasına dəstək verir. Bu da ötən fəsillərdə qeyd etdiyimiz kimi demokratiyanın əsasını təşkil edir.

Tolerantlıq sosial ədalətsizliyə və qanun pozuntusuna qarşı dözümlülüyü və eləcə də, soyuqqanlılığı və özünün maraqlarının güzəşt edilməsini bildirmir.

Hər növ hərəkət bizim üçün qəbul edilən ola bilməz. Başqalarına qarşı hörmətsizliyi ifadə edən və ya başqasına ziyan vuran insanların davranışları, məsələn, yalan, oğurluq, sözsüz ki, dözümlülük olmayacaqdır. Belə bir davranışa qarşı tolerant ola bilmərik. Həmçinin tolerantlıq bizə qarşı necə davranılmanı istədiyimiz kimi, başqalarına da elə davranmağı bildirir. Tolerantlıq anlayışını anlamaqda sizə onun əksi olan anlayışın – qeyri-tolerantlığın öyrənilməsi də yardım edəcəkdir. Qeyri-tolerant davranışın əsasını müəyyən insanların inamı təqdim edir ki, onların nəzərləri, dəyərlər sistemi, həyat qaydası başqalarından yaxşıdır. Belə bir münasibət ondan fərqli şəxsiyyətin diskriminasiyasına səbəb olur. Dözümsüzlük nəinki şəxsiyyətlər arasında, eləcə də etnoslar və dövlətlər arasında zorakılığa səbəb olur. Dövlətlər arasında zorakılıq müharibə ilə sona çatır. Tolerantlığın əsas mahiyyəti isə müharibə mədəniyyətinin sülh mədəniyyəti ilə əvəz edilməsindədir. Məhz qeyri-tolerant davranış insanların dinc yaşamalarına mane olur.



Osvensimin konsentrasiya düşərgəsi

## Qeyri-tolerant davranışın, diskriminasiyanın təzahürləridir:

- başqasının təhqir edilməsi;
- rişxənd etmək;
- təcrid etmək;
- zorakılıq;
- qorxutma, hədələmə;
- **rasizm (irqçilik)** – insan qrupları haqqında onların fiziki xüsusiyyətlərinə əsasən əvvəlcədən yaradılmış mənfi fikir;
- faşizm –totalitarizm meylli ideologiya;onun üçün hər növ demokratik azadlığın məhdudlaşdırılması xarakterikdir, öz

**Lüğət**

Rasizm (irqçilik) – insanların bir irqinin digərindən yaxşı olması barədə düşüncə.

## L ü ğ ə t

Aparteid – dini diskriminasiyanın formalarından biridir, hansını ki, idarəçi təbəqə yerli əhaliyə qarşı həyata keçirir.

İrqi diskriminasiya – insan üçün irqinə, dərisinin rənginə, mənşəyinə, milli və ya etnik mənsubiyyətinə əsasən hər hansı bir məhdudiyyətin, fərqin, istisnanın və ya üstünlüyün verilməsi prosesi. İrqi diskriminasiya zamanı siyasi, iqtisadi, sosial, mədəni və ya ictimai həyatın hər hansı bir başqa sahəsində insanın fərdi hüquqlarının və əsas azadlıqlarının, bərabərlik prinsiplərinin tanınması və onun həyata keçirilməsi imkanları inkar edilir, kiçildilir.

Genosid –Soyqırım, fövqəladə sistematik əməllər (qətl, fiziki və əqli zərər yetirilmə, doğumun məhdudiyyəti, uşaqların doğma yerlərindən zorla uzaqlaşdırılması). Genosidin məqsədi konkret etnik, siyasi və ya mədəni qrupun ləğv edilməsi və ya onun dilinin, dininin və mədəniyyətinin məhv edilməsidir.

Stereotip – əvvəlcədən yaranmış mənfi fikrə və diskriminasiyaya səbəb olan insanların və ya ideyaların çox sadə, ayrı və bir çox hallarda qeyri-şüuri anlayışlarıdır.

Etnosentrizm – bir etnik qrupun digərindən yaxşı olması fikri.

xalqının böyüdülməsi və onun mədəniyyətinin vahidliyinin təsdiq olunması;

- istismar – öz maraqları üçün kimdənsə və ya nədənsə ədalətsiz şəkildə istifadə etmək;
- imperializm – dövlət tərəfindən sərhədlərdən kənarda hökmranlığın yayımlanması və inzibati vahidlərin yaradılması;
- dini və mədəni simvolların təhqir edilməsi;
- vandalizm – cəmiyyətə və ya özəl şəxsə aid olan mədəni və maddi dəyərlərə ziyan vurulması və məhv edilməsi;
- sürgün edilmə;
- **aparteid – dini diskriminasiyanın** ən qəddar formasıdır. Bu, irqi əlaməti ilə seçilən müəyyən qruplar üçün mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların məhdudlaşdırılması ilə ifadə olunur.
- represiyalar – müxtəlif növ fiziki və psixoloji təsir;
- **genosid (soyqırım)**– hər hansı etnik, milli, dini və ya irqi qrupun bütövlükdə və ya qismən məhv edilməsi.

Qeyri-tolerant davranışı, diskriminasiyanın nəticəsi olan zorakılığı dəf etmək üçün onun səbəblərini bilməliyik. Bütün qeyri-tolerant davranışların, o cümlədən diskriminasiyanın əsas səbəbi neqativ **stereotiplər**, qabaqcadan yaranmış yanlış fikir və etnosentrizmdir.

Onlardan hər birini ayrı-ayrılıqda təhlil edək:

Etnosentrizm etnik qrup tərəfindən öz ənənələrinin və dəyərlərinin həddən artıq qiymətləndirilməsi və öz qrupunun üstünlüyünü təqdim etməkdir. Etnosentrizm etnoslar arasında münaqişələri yaradır.

Qabaqcadan yaranmış yanlış fikir – əvvəlcədən formalaşdırılmış nəzərlər insanları və baş verən hadisələri gerçəklikdə görməyə və dəyərləndirməyə mane olurlar. Qabaqcadan yaranmış yanlış fikir insan tərəfindən ikinci adamı və ya hadisəni tanıyana qədər, hadisəni dərk edənə qədər yaranmış yanlış fikirdir, çünki qiymət verən təhlil olunası məsələni yaxşı bilmir və ya ümumiyyətlə, bilmir.

Stereotiplər - müxtəlif səbəblərə görə insanlar, hadisələr, insan qrupları barədə formalaşan nəzərlərdir. “Stereotip” yunan sözüdür. Söz iki hissədən ibarətdir. Birinci hissə, “stereo” möhkəm, ikinci “tipos” isə izdir. Stereotip insanın artıq formalaşdırılmış nəzərlərlə

davranış normalarını, ənənələri, digər dəyərləri qiymətləndirməsini təqdim edir.

Stereotip yarandığı zaman insan və ya insanlar qrupu haqqında bizim fikirlərimiz ayrılır. Bir çox hallarda,ictimaiyyət ədalətsiz şəkildə və ya ömürlük bəzi stereotipləri bərqərar edir və bu da tez-tez ədalətsiz təqib etmə və diskriminasiya səbəbinə çevrilir. Nə üçün belə olur? Çünki bu halların hər birində biz öz nəzərlərimizi ayırırıq. Bu ayırmanın əsasını keçmişdə alınan təcrübə, kitablarda və jurnal-qəzetlərdə oxunulan əhvalatlar, televiziyadan və ya ailə üzvlərindən yaxud da dostlardan alınan informasiya, baxılmış kinofilmlər təqdim edirlər. Bir çox hallarda, biz əvvəlcədən real faktlarla deyil, stereotiplərə əsaslanaraq şəxs haqqında fikrimizi qururuq. Mütəmadi əlaqəmiz olmayan cəmiyyətin qrupu ilə işimiz olduqda stereotiplərin təsiri altına düşürük. Keçmiş Amerika kinofilmlərində afro-amerikalılar vecsiz, tənbəl və təcavüzkar kimi təqdim olunurdular. Bu da afro-amerikalılar haqqında yanlış stereotipin formalaşmasına imkan yaradırdı.



Stereotipin bariz nümunəsi gender stereotipidir. Bu zaman qadınlar və kişilər ölkənin ictimai və siyasi həyatında bərabər şəkildə iştirak etmir, onların rolları bərabər şəkildə bölünmürdü.

Gürcüstanda bərqərar olmuş məşhur gender stereotiplərindən birini nəzərdən keçirək:

Qadının yeri evdir, qadının əsas vəzifəsi evdar qadın olmaqdır.

Bu və ya ümumiyyətlə başqa stereotipi necə dəf edək:

- stereotipi dəf etmək məqsədilə stereotipləri əsassız edən misallar toplamaq lazımdır;
- mənfi stereotiplərdən imtina etmək lazımdır;
- barələrində stereotiplər yaranmış insan qruplarının ənənələri, mədəniyyəti və s. daha yaxşı öyrənmək lazımdır.

Gender stereotipi yavaş-yavaş çilik-çilik olur. Hal-hazırda qadının rolu və imici əhəmiyyətli şəkildə dəyişmişdir. Tez-tez işgüzar imici olan – rəsmi libasda və işgüzar tərzləri olan qadınlara təsadüf edirik.



İşgüzar imicli qadın bizneslə heç məşğul belə olmaya bilər və onun davranış tərzi və geyimi yalnız xəyal ola bilər.

Stereotipə yaxın terminin – imicin əsas mahiyyəti məhz budur. İmic – konkret əşya, insan haqqında süni, xüsusilə yaradılmış təsəvvürdür. O, tez-tez faktlara deyil, nüfuza, emosiyalara, fikirlərə

**L ü ğ ə t**

Təbliğat, propaqanda – (lat. propaganda,hərfi mənası – yayımlanmaya aid olan) müxtəlif simvolların vasitəsilə (sözlə, lozunqlarla, musiqi ilə, media vasitələri ilə və s.) insanların nəzərlərinə, fikirlərinə, ümumiyyətlə, şüura, ideya təsiri göstərilir. Məqsədə nail olmaq üçün təbliğatçı (təbliğat aparan şəxs) mühüm faktlardan yan keçir və ya onu eybəcərləşdirir və auditoriyaya yalnız onun üçün məqbul olan məlumatı çatdırmağa çalışır.



və s. əsaslanır. İmic obyektin real qavranılmasına mane olur. İmicin yaradılması işgüzar insanlar üçün olduqca vacibdir. İmicdən reklamda, **təbliğatda** geniş istifadə olunur. “Kütləvi vasitələr” bir çox hallarda, real simalar əvəzinə məhz stereotiplərdən və imicdən istifadə edirlər.

“Mənim arzum odur ki, dörd övladımın dördü də günlərin birində elə bir ölkədə yaşasın ki, orda onlar haqqında dərilərinin rənginə görə deyil, xüsusiyyətləri və xasiyyətlərinə görə danışsınlar”.

*İnsan hüquqlarının müdafiəçisi, Martin Lüter Kinq*
*Prezident Linkolnun memorialı qarşısında söylənilən nitq. Məhz Linkolnun sayəsində ABŞ-da quldarlıq ləğv edilmişdir*

“Qonşunu üç gün özünü onun yerinə qoymayana qədər mühakimə etmə”.

*Şimali Amerika atalar sözü*

Diskriminasiyaya tez-tez savadsızlıq səbəb olur. Bilmədiyimiz hal bizə qeyri-adi görünür və bunun üçün də fərqli olanlardan qorxuruq. Ona şübhə ilə baxır və tez-tez aqressiv münasibət də göstəririk.

“İnsanlar bir çox hallarda bir-birlərinə nifrətlə yanaşırlar, çünki bir-birlərindən qorxurlar, çünki bir-birlərini tanımırlar…”

*Martin Lüter Kinq*

Gündəlik həyatda diskriminasiya təhsilin və sosial xidmətin alınmasının məhdudiyyəti ilə, insanları saymamaqla, müxtəlif ictimai birlikdə iştirak məhdudiyyəti ilə, rişxəndlə, biznes və ya siyasətdə qadınların və ya azlıqların karyera irəliləyişləri üçün əlavə baryerlər yaratmaqla ifadə oluna bilər.

Tez-tez azlıq qrupları azlıqları təqdim etdiklərinə görə qəddarlığın qurbanlarına çevrilirlər. Təəssüflər olsun ki, hal-hazırda da irqçi təşkilatlar vardır: “ağ bıçaqlar”, “neonasistlər”, “skinhedlər” (skinhed – saçları qırxılmış) və sairə. Onlar öz diskriminativ və irqçi nəzərlərini açıq şəkildə bəyan edirlər.

## Stiqma

Diskriminasiyanın səbəblərindən biri **stiqmadır**. Stiqma yanlış, “donmuş” nəzər, vurulan damğadır. Stiqma şəxsin və ya qrupun **marginallaşdırılmasına**, yəni təcrid olunmasına səbəb olur.

Stiqmalaşdırılmış insanın diskriminasiyası tez-tez münaqişə və zorakılığa səbəb olur. İnsan stiqmanın nəticəsində cəmiyyətdən təqib olunur. Stiqma çoxölçülü anlayışdır. O, psixoloji,hüquqi, sosial ola bilər. Stiqma cəmiyyətdə də, ailədə də təsadüf oluna bilər. Biz başqasını bizdən fərqli olduğuna görə asanlıqla mühakimə və təcrid edə bilərik, çünki ondan qorxuruq və ya onu aid olduğumuz cəmiyyətin tamdəyərli üzvü hesab etmirik. Stiqmanın “qurbanları” əsasən məhdud imkanlı insanlar, müəyyən xəstəlikləri (məs. İİV/QİÇS) olan şəxslər, sosial cəhətdən aztəminatlı qrupların üzvləri, qaçqınlar, köçkünlər və s. olurlar.

Təkcə cəmiyyətin sağlam münasibəti sosiumun müəyyən üzvlərinin stiqmatizasiyasının qarşısını ala bilər. Hər bir insan anlamalıdır ki, hər kəsin yaşadığı cəmiyyətin üzvü olmağa hüququ var.

**L ü ğ ə t**

Stiqma – Qədim Yunanıstanda: qulun və ya müqəssirin bədəninə vurulan damğa. İnsanların mənfi damğa ilə təyin olunması.

Marginal – sosial qrupdan kənarlaşdırılan, təcrid olunan.

## İİV/QİÇS-lə əlaqədar stiqma

İİV/QİÇS-lə əlaqələnən stiqma və diskriminasiya qismən qorxu və anlaşılmazlıq əsasında inkişaf etmişdir. İİV diaqnozu təlaş, qorxu və acizlik hissini yaradırdı. Hal-hazırda məlumdur ki, artıq QİÇS müalicə olunur və bu xəstəliyə yoluxmuş insanlar uzun il yaşaya bilərlər. Buna baxmayaraq ümumiyyətlə, bu xəstəliyə və infeksiyaya qarşı yenə də qorxu var. Buna da xəstəliyə yoluxmuş insanlara qarşı cəmiyyətin açıq şəkildə mənfi münasibəti səbəb olur. Stiqmaya görə İİV-daşıyıcıları öz statuslarını açıqlamaqdan qorxurlar; onlar İİV/QİÇS müayinələrindən uzaq olmağı üstün tuturlar və bu da infeksiyanın yayılmasına imkan yaradır. Xəstəliyə olan bu cür yanaşmaya cəmiyyətin infeksiya-daşıyıcılarına olan mənfi münasibəti səbəb olmuşdur.

Məsələn, Gürcüstanın şəhərlərindən birində tibb müəssisələrində qanköçürmə nəticəsində gənc hamilə qadın infeksiyaya yoluxdu. Onun İİV/QİÇS-ə yoluxmuş övladı dünyaya gəldi. Araşdırma nəticəsində məlum oldu ki, qanköçürmə b.a. “pəncərə” mərhələsində baş vermişdi. Bu mərhələdə İİV/QİÇS virusu gizli mərhələdə idi. Qadının xəstəliyə yoluxmasına məhz bu səbəb olmuşdu. Məhkəmə zərərçəkənə az təzminat ayırdı.Hal-hazırda ailə şəhərkənarı qəsəbədə yoxsulluq içində yaşayır. Ailə üzvləri işləmirlər, onlarla heç kim ünsiyyət saxlamır.





Fikirləşin, ailə nə üçün bu vəziyyətdədir? Bu cür insanlara kim qayğı göstərməlidir?

## Stiqmanın qarşısını necə alaq?

Dövlət stiqma ilə mübarizəyə başlamışdır. O, qanunvericilik əsasında "təcrid olunmuş" qrupları cəmiyyətə inteqrasiya etməyə çalışır. Məs., hökumət "İİV/QİÇS infeksiyası haqqında Gürcüstan qanununu" dərc etdi. Bu qanunda dövlətin xəstəliyə qarşı siyasəti verilir. Qanun fiziki və hüquqi şəxslərə xəstəliyə yoluxmuş insanların hüquqlarını və dəyərlərini qorumağı həvalə edir. Eyni zamanda qanun bu xəstəliyə yoluxmuş insanlara qarşı diskriminasiyanın qarşısının alınmasını təmin etməlidir.

Eləcə də dövlət məcburi köçkünlərin, məhdud imkanlı şəxslərin cəmiyyətə inteqrasiya strategiyalarını işləyib hazırlamışdır.

2011-ci ilin mart ayında Yaponiyada baş vermiş dağıdıcı zəlzələnin və bunun nəticəsində baş verən sunaminin nəticəsində minlərlə insan dünyasını dəyişdi. Kəndlər və şəhərlər yerlə-yeksan oldular. Fəlakət yerli dağıntılardan başqa bəşəriyyəti qlobal fəlakətlə üzləşdirdi. Fukusima prefekturasında atom elektrik-stansiyasının zədələnməsi radiasiyanın sızmasına səbəb oldu. Ətraf ərazilərdə yaşayan insanlar üçün radiasiya şüalarının təhlükəsi yarandı. Ümumdünya mediası şüa almış əhalinin stiqmatizasiyasının baş verəcəyindən ehtiyat edir.

- Fikirləşin, nə üçün bu insanların stiqmatizasiyası baş verə bilər?
- Bu insanlara qarşı belə bir münasibətə nə səbəb olabilər?



Belə ki, insanların hamısı eynidir və eyni zamanda onlar həm də fərqlidirlər. Biz bir-birimizdən fiziki quruluşumuzla, dərimizin rəngi ilə, müxtəlif mədəniyyətlərə aid olmağımızla fərqlənirik. Bizlərdən bəziləri daha nailiyyətli oluruq, bəziləri – daha az, amma buna baxmayaraq hamımızın hüquqları eynidir. Biz hər yerdə - sinif otağında, məktəbdə, həyətdə, məhallədə, şəhərdə, ölkəmizdə, dünyada bərabərik!

**Tapşırıq 1**

Gürcüstan tarixindən, ədəbiyyatından tolerant və qeyri-tolerant hadisələri axtarıb tapın.

**Tapşırıq 2**

"Çirkli paltarlar" əhvalatını oxuyun;

### Çirkli paltarlar

Gənc ailə yeni yaşayış binasına köçmüşdü. Səhər tezdən gənc qadın pəncərədən baxanda ağ paltarlar sərən qonşunu gördü.

– Bax, gör necə də çirkli paltarlardır, - qadın ərinə dedi.

Əri ona fikir vermirdi, çünki qəzet oxuyurdu.

– Yəqin yaxşıyuyucu tozdan istifadə etmir və ya ümumiyyətlə, paltar yuya bilmir. Ona paltar yumağı öyrətsəydilər, yaxşı olardı.

Hər dəfə qonşu paltar sərəndə bu hal təkrarlanırdı.

Gənc qadın qonşunun natəmizliyinə görə heyrətini gizlədə bilmirdi. Bir dəfə o, yenə də pəncərədən baxırdı və birdən qışqırdı:

- Bax, bu gün ağlar təmizdir, görünür, paltar yumağı öyrəndi.

- Yox, əzizim, - əri ona dedi, - iş ondadır ki, bu gün pəncərəni təmizləmişəm.

**Suallara cavab verin:**

- Nə üçün qadında qonşu haqqında yanlış təsəvvür yaranmışdı?
- Əhvalatda verilən halla stereotipləri və əvvəlcədən mühakimə yürütməyi əlaqələndirin.
- Kişinin hərəkətini analiz edin.
- Kişi necə hərəkət etdi? O, necə hərəkət edə bilərdi?

**Tapşırıq 3**

1-ci sxemdə tolerant və qeyri-tolerant davranışların siyahısı verilir.
Aşağıda verilən sxemlə tanış olun. Düşünün və sizi xarakterizə edən üç tolerant və üç qeyri-tolerant davranışı və ya təsadüfən etdiyiniz və ya kiminsə sizə qarşı etdiyi davranışı seçin. Fikrinizi cütlük yoldaşınızla paylaşın.

### 1-ci sxem

| Tolerant davranış | Qeyri-tolerant davranış |
|---|---|
| Başqalarına qarşı xoş münasibət | Başqalarını təhqir etmək, rişxənd etmək |
| Sizdən fərqli olan insana hörmətlə yanaşmaq | Sizdən fərqli olan insanı saymamaq, təcrid etmək |
| Fərqli fikrə hörmətlə yanaşmaq | Fərqli fikrə hörmətsizlik etmək |
| Başqalarını mühakimə etməmək | Başqalarını yalnız öz nəzərinə əsasən qiymətləndirmək |
| Humanizm – insana məhəbbət, onun dəyərlərinə hörmət etmək | Hörmətsizlik |
| Altruizm, yəni başqasına sonsuz qayğı göstərmək | Heç kimə qayğı göstərməmək |
| Mərhəmət göstərmək, onun dərdinə şərik çıxmaq | Heç kimə mərhəmət göstərməmək |
| Dinləmə bacarığı | Dinləməyi sevməmək |
| Səbrli olmaq, özünü saxlamaq bacarığı, xoşagəlməzhalda aqressiya göstərməmək | Səbrsiz olmaq, asanlıqla özündən çıxmaq |
| Sədaqətli olmaq | Xəyanət |

**Sxemi doldurun:**

Düşünün/ cütlüklərə bölünün/ paylaşın

**2-ci sxem**

| Sual | Mən düşünmədim | Cütlük yoldaşım düşünmədi | Bir-birimizlə nəyi paylaşdıq |
|---|---|---|---|
| Sizin hansı tolerant xüsusiyyətiniz var? | | | |
| Hansı qeyri-tolerant hərəkəti etmisiniz? | | | |
| Başqasının diskriminasiyası münaqişə və zorakılığa səbəb olmuşdurmu? Nə üçün? | | | |
| Diskriminasiyanın və onun nəticəsində yaranan zorakılığın qarşısını necə alardınız? | | | |

**Tapşırıq 4**

Şəkli üç cümlə ilə təsvir edin. İzah edin, necə düşünürsünüz, sosial cəhətdən müdafiəsiz insan nə deməkdir?





## Tapşırıq 5



- Misal gətirin, gündəlik həyatda tolerant nəzərləri necə bərqərar etmək olar?
- Tolerantlıq nə üçün vacibdir və bunun üçün bizlərdən hər birimiz nə edə bilərik?
- Nə üçün bəzi insanlar skinhedlər kimi birliklərdə birləşirlər?
- Diskriminsiya və yalançı inanclar nəinki "qurbanlar", eləcə də bu diskriminasiyanı həyata keçirənlər üçün də pisdir. Niyə?
- Ətrafımızdakı yalançı inancları yox etmək üçün nə etməliyik?
- Stereotipin necə formalaşa biləcəyinə dair misal gətirin.
- Televiziya verilişi və ya kinofilm qəhrəmanın şəklində stereotipə misallar gətirin.
- Dərs prosesi ilə əlaqədar stereotipləri sadalayın, məsələn, "b.a. ikincidərəcəli fənləri öyrənmək vacib deyil" və s.

## Tapşırıq 6

Cümlələri bitirin:

Bütün riyaziyyatçılar ______________________________________

______________________________________________________

Futbolçular ____________________________________________

______________________________________________________

Gözəl qadınlar _________________________________________

______________________________________________________

## Tapşırıq 7

**Mən fərqliyəm**



- Sadalayın, insanlar bir-birlərindən nə ilə fərqlənirlər.
- Nə üçün bəzən insanın fərqli olması onun diskriminasiyasına səbəb olur? Misallar gətirin.
- Bu növ diksriminasiyanın qarşısını almaq  üçün nə etmək lazımdır?

## Tapşırıq 8

Mətni oxuyun və analiz edin:

**O işləmir**

– Çoxlu uşaqlarınız var? – həkim soruşur.
– Altı, – o cavab verir.
– Həyat yoldaşınız işləyirmi?
– Evdən bayıra çıxmır.
– Aydındır. Bütün günü nə edir?
– Səhər saat 4-də oyanır, su, odun daşıyır, ocaq qalayır və səhər yeməyini hazırlayır. Sonra çaya gedir və paltar yuyur. Bundan sonra bazardan lazımi ərzaqları alır və sonra xörək hazırlayır.
– Siz günorta evə qayıdırsınızmı?
– Yox, yox, arvadım mənə  evdən təxminən üç kilometr uzaqda olan çölə yemək gətirir.
– Bəs sonra?
– Arvadım toyuqlara və donuzlara baxır və əlbəttə ki, bütün günü uşaqlara göz-qulaq olur. Sonra nahar hazırlayır, mən gələndə hər zaman nahar artıq hazır olur.
– Arvadınız nahardan sonra yatmağa gedir?
– Yox, yatmağa mən gedirəm. O isə saat doqquza qədər ev işlərini bitirməli olur.
– Amma siz söylədiniz ki, arvadınız işləmir?
– Yox, mən dedim ki, o, evdən bayıra çıxmır.

- Bu halda kimin hüquqları pozulur? Bu halda hansı növ diskriminasiyaya toxunulur?
- Sinif otağında, ailədə nə etməliyik ki, bir-birimizə bərabər kimi davranaq?

**Tapşırıq 9**

**"Xoş yol yoldaşı"**



Təsəvvür edin ki, qatarla yol gedirsiniz. Sizin qarşınızda ehtimal olunan sərnişinlərin siyahısı var. Seçim etmək imkanınız olsaydı, qeyd edilən siyahıdan hansı üç sərnişinlə yol gedərdiniz? Əsaslandırın ki, nə üçün?

Potensial sərnişinlərin siyahısı:
- qaraçı;
- pank;
- İİV-daşıyıcısı olan gənc kişi;
- yoxsul geyinmiş uşaqlı qadın;
- qaradərili tələbə;
- narkoman görünüşlü gənc;
- azadlığa buraxılmış məhbus;
- milli paltarda hindli;
- polis;
- əlil arabasında məhdud imkanlı insan;
- qəribə və xoşagəlməz yemək yeyən çinli;
- naməlum dildə danışan insan.

**Suallara cavab verin:**
- Bu tapşırığı yerinə yetirdikdə hansı hissləri keçirdiniz?
- Seçim etmək asan idimi? Nə üçün?
- Qeyd edilən üstünlüyə səbəb olan nə idi?
- Hansı səbəblərə görə bu siyahıdan hər hansı bir insanı seçmədiniz? Seçim etməkdə sizə mane olan nə oldu?
- Hansı nəzər sizə seçim etməkdə mane oldu?
- Sizin nəzərləriniz həqiqətə nə dərəcədə uyğundur? Bu siyahıda hamının bu xassələri varmı?

## Layihə üzərində iş- III pillə:
## Seçilmiş problem haqqında informasiyanın toplanılması

**Üçüncü pillənin təsviri:**

Layihə üzərində işin üçüncü pilləsində bütün sinif seçilən problem haqqında əlavə məlumatların axtarışı üzərində işləməlidir. Faktiki olaraq kiçikmiqyaslı tədqiqat keçirməlisiniz. Dəyərli informasiyanın axtarışı üçün aşağıda sadalanan informasiya vasitələrindən əhəmiyyətlisini seçin. Tədqiqata bütün informasiya mənbələrini cəlb etmək üçün yenə də qruplara bölünün və hər bir qrup tədqiqat üçün fərqli informasiya mənbəyini seçir. Alınan informasiyanı qeyd etmək üçün layihənin birinci mərhələsində (səh.19-21) verilən suallar və eləcə də aşağıda verilən **publikasiyalardan, məktublardan və müsahibələrdən toplanılmış məlumatın sənədləşdirmə forması** sizin üçün faydalı olacaqdır. Əgər problem haqqında dəyərli informasiyanı hər hansı fərdi bir şəxs çatdıra bilərsə, o zaman onu qonaq statusunda sinfə dəvət edə bilərsiniz.

İnformasiyanın toplanılması həm birbaşa, eləcə də telefon və yazılı söhbətlə də mümkündür.



İnformasiya vasitələri:

1. kitabxanalar;
2. çap mediası;
3. professor-müəllimlər;
4. vəkillər və hakimlər;
5. icmada mövcud olan təşkilatlar və maraqlı qruplar;
6. qanunvericilik strukturları;
7. inzibati agentliklər;
8. elektron informasiya vasitələri.

**Publikasiyalardan, məktublardan və müsahibələrdən toplanılmış məlumatın sənədləşdirmə forması**

Qrup üzvlərinin adları ------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------

Tarix ----------------------------------------------------------------------------------------------------------

İnformasiya mənbəyini axtardığınız təşkilat -------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------

Tədqiq olunan problemin adı ------------------------------------------------------------------------

1. İnformasiya mənbəyi

a. Adı/başlığı ------------------------------------------------------------------------------------------------

b. Müəllif ----------------------------------------------------------------------------------------------------

g. Tarix ---------------------------------------------------------------------------------------------------------

2. Tədqiq olunan problemlə əlaqədar əhəmiyyətli suallara cavab verməkdə sizə yardım edəcək informasiyanı qeyd edin.

a. İcmamız üçün bu problem nə qədər ciddidir? -----------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------

b. Bu problem ölkəmizdə nə qədər geniş yayılmışdır? -----------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------

g. Sizin fikrinizcə, hansı düzdür?

- Bu problemi heç bir qanun və siyasət nizamlamır.
  Bəli --- Xeyr -----
- Bu problemi nizamlayan qanun uyğun deyil.
  Bəli --- Xeyr -----
- Bu problemi nizamlayan qanun uyğundur, amma lazımi şəkildə qorunmur.
  Bəli ------- Xeyr -------

d. Hakimiyyətin hansı pilləsi və ya orqanı bu problemin həllində məsuliyyət daşıyır?

Bu cəhətdən onlar hansı tədbirləri həyata keçirirlər? Hökumətdən əlavə bu problemin həllinə qayğı göstərmək kimə tapşırılır? ------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------
-------------------------------------------------------------------------------------------------

e. Hökumət tərəfindən bu problemin həlli ilə əlaqədar qəbul edilən qərarlara qarşı icmada hansı qarşıdurmalar mövcuddur?

v. Bu problemlə əlaqədar öz fikrini bildirən əsas qruplar, təşkilatlar və fərdi şəxslər kimlərdir?

- Nə üçün onlar bu problemlə maraqlanırlar?

- Hansı mövqeni tuturlar?

- Onların mövqelərinin hansı müsbət və mənfi tərəfləri var

- Onlar höküməti mövqelərini qəbul etməyi məcbur etməyə necə çalışırlar?

z.Onların mövqeləri ilə əlaqədar daha çox məlumatı necə tapa bilərik?

T. Bu problemin tərəflərini təqdim edən əsas qruplar, təşkilatlar və fərdi şəxslər kimlərdir?

- Nə üçün onlar bu problemlə maraqlanırlar?

- Hansı mövqeni tuturlar?

- Onların mövqelərinin hansı müsbət və mənfi tərəfləri var?

- Onlar hökuməti mövqelərini qəbul etməyi məcbur etməyə necə çalışırlar?

i. Əgər sinif bu problemin həllinə doğru yönəlmiş strategiyanı işləyib hazırlayarsa, o zaman hökuməti onunla bölüşməyə necə məcbur edə bilər?

# Diskriminasiyanı necə dəf edə bilərik; Bulinq nədir

## Dərs 4

Diskriminasiya barəsində danışdıqda "bulinq" adlanan qeyri-tolerant davranışlar birliyindən yan keçmək mümkün deyil. "Bulinq" termini fiziki və ya psixoloji zorakılığı bildirir. O, sinif yoldaşları və ya başqa qrup tərəfindən uşağa qarşı həyata keçirilir. Bulinqin üç növü mövcuddur: emosional, sözlü və fiziki. Bulinqə xas olan hərəkətlər: təhqiredici adlar qoymaq, rişxənd, qrupdan və ya ümumi işdən təcrid etmə, ədəbsiz sözlərlə xitab etmək, əşyaları əlindən almaq, yazılı və ya sözlü təhqir, hədə-qorxu, qorxutmaq, əl vurmaq, yumruqla və ya ayaqla döymək, əziyyət vermək, "qurbanı" əlverişsiz vəziyyətdə qoymaq, öz istəyinə qarşı hərəkət etməyə məcbur etmək.



- Fikirləşin, siz belə bir vəziyyətə düşmüsünüzmü?
- Siz başqasını belə bir vəziyyətə salmısınızmı?

Bizim anlayışımızda bulinqə uyğundur: şərə salmaq, davakarlıq, qoçuluq. Bulinq müasir dünyada geniş yayılmışdır. Bir sıra ölkələrdə bulinqin qurbanlarını qanun müdafiə edir. Sözün etimologiyasına nəzər salsaq, görərik ki, termin ingilis sözü "bull" sözündən gəlir və öküz mənasını daşıyır. Əgər bulinqə oxşar məna daşıyan "qoçu" sözü ilə paralellər aparsaq, o zaman qoyun sürüsünün önündə gedən qoçla uyğunluğu görərik. Həqiqətən də bir çox hallarda aqressiv yeniyetmə yaşından böyük, güclü görünməyə və öndə gedən funksiyanı üzərinə götürməyə çalışır. Təəssüflər olsun ki, zorakılığın təşəbbüskarı liderin bu ən yaxşı xüsusiyyətlərini bəd niyyəti üçün istifadə edir. Tez-tez müəllimlə, valideynlərlə, bacı-qardaşları, həmyaşıdları ilə kobud davranır. Aqressiv yeniyetmə həddən çox enerji ilə, özü haqqında həddən artıq müsbət və ya mənfi təsəvvürü ilə, başqalarına ağalıq etmək istəyi ilə xarakterizə olunur. Onun özünün zorakılığın qurbanına çevrilə biləcəyinə qorxusu yaranır. Zorakı diqqəti cəlb etmək istəyir, onda müqəssirlik hissi olmur, başqasına şəfqət göstərə bilmir. Bəzən gənclər düşünmədən, sadəlövhlüklə öz aqressiv hisslərini nümayiş etdirirlər. Təəssüflər olsun ki, bu cür davranış "qurban"-a sağalmayan fiziki və ya psixiki ağrı yetirə bilər.

Yeniyetmə - qurban bir çox hallarda həmyaşıdlarından fərqlənir. O, diqqəti cəlb etməyən, balaca və zəifdir. Səs-küylü yerlərdən qaçır. Onun aydın şəkildə seçilən xüsusiyyətləri ola bilər. Məsələn, başqalarından çox hündür və ya alçaq, kök və ya arıq, yoxsul və ya zəngin, sakit ola, yaxşı oxuya bilər.

Qaydalarla tanış olun və anlayın ki, bulinqin qurbanına çevrilməmək və ya özünüzün zorakı olmamağınız üçün necə hərəkət etməlisiniz.

1. Münasibətlərin qızıl qaydasına əməl edin: “başqalarına sizə necə davranmalarını istədiyiniz kimi davranın”;
2. Özünüzü zorakılığa məruz qalan insanın yerində təsəvvür edin;
3. Hamını olduqları kimi qəbul edin; hər bir insanın fərdiliyinə hörmətlə yanaşın;
4. Münaqişənin həllinin dinc yollarını öyrənin.

Bulinqin və ümumiyyətlə, diskriminasiyanın bütün təzahürlərini dəf etmək üçün biliklə silahlanmaq lazımdır. Kommunikasiya, dialoq aparmaq, aktiv dinləmə, empatiya/duyğu vərdiş-bacarıqları işlənilib hazırlanmalı və qeyri-tolerant davranışa mənfi münasibət göstərilməlidir.

Diskriminasiyanı dəf etməyin ən yaxşı vasitələrindən biri **kompromis və əməkdaşlıqdır.**

**L ü ğ ə t**

Kompromis –qarşılıqlı güzəşt yolu ilə əldə edilən razılaşma.

## Kompromis

Kompromis iki və ya bir neçə ekstremal fikirlər arasında ortaq nöqtədir. Bu elə bir vəziyyətdir ki, iki və ya bir neçə mübahisə edən tərəf ümumi maraqlarına və məqsədlərinə nail olmaq üçün müəyyən mövqelərində güzəştə getməyə hazır olurlar.

Həyatınızda mübahisə epizodunu xatırlayın –valideynlərlə, sinif yoldaşları ilə…

Mübahisə hansı nəticə ilə başa çatdı? Mübahisənin qarşısını necə ala bilərdiniz?

## Biz kompromis əldə edə bilərik

Həmyaşıdlarınızla və ya böyüklərlə mübahisə etdikdə unutmayın ki, istədiyimizə nail olmaq hər dəfə mümkün olmur. Kompromisə nail olmaq üçün vəziyyətə mübahisə edən insanın tərəfindən də baxmaq lazımdır. Əgər bütün mübahisəli vəziyyətdə kompromis əldə edə bilsək, insanların etimadını və sonralar isə onların dəstəyini də qazanarıq. İnsanlarla razılığa gəlin vəhiss etdirin ki, onların fikirlərinə hörmətlə yanaşırsınız. Düşünməyin ki, bu, sizin onların üstünlüklərini etiraf etdiyinizi bildirir. Bu o deməkdir ki, siz kompromis məharətinə sahibsiniz.

Eləcə də diskriminasiyanı dəf etməkdə sizə insan hüquqlarını bilmək yardım edəcəkdir. Münaqişəli vəziyyəti həll etməkdə dialoq yardım edəcəkdir.

Dialoqu necə aparaq?

1. Dialoq əməkdaşlıqdır, onun məqsədi razılaşmadır;
2. Dialoq zamanı bir tərəf digər tərəfi dinləyir ki, mövqelər arasında fərqləri başa düşsün və tapsın;
3. Dialoq təhlil olunası məsələ üzərində yanlış nəzərin təzahür etməsinə və qiymətləndirilməsinə dəstək verir;
4. Dialoq prosesində mövqenin dəyişdirilməsi qəbul ediləndir;
5. Dialoq problemin həllinin ən yaxşı vasitəsini tapmağa daha çox imkan verir, nəinki hər hansı bir tərəfin orijinal mövqeyi ilə razılaşmağa;
6. Dialoq hadisələrə yaradıcılıqla, obyektiv, çoxtərəfli yanaşmanı inkişaf etdirir;
7. Dialoq insanlara və onların ideyalarına hörmətlə yanaşmağı tələb edir.

**Tapşırıq 1**

**Mətni diqqətlə oxu:**

Dərslərdən sonra Laşa, Dato, Mişo və daha bir neçə oğlan məktəbdə basketbol oynamağa qaldılar. Teona və Nino da onlarla idilər, eləcə də Anri – “xəmir” (sinif yoldaşları onu belə çağırırdılar). Hamı oynamaq istəyini bildirdi. Laşa Anriyə baxıb dedi:

– Yöndəmsiz və köksən!

– Yaxşı olardı ki, o oğlanı çağıraq, hündürdür!

– Hansını? – Dato soruşdu.

– Bax, o yeni çilli oğlanı. Deyəsən Qoqitadır adı. Yox, xınalı yaxşıdır, daha uyğundur, – Laşa cavab verdi.

– Qızlar, siz baxın, basketbol oynamaq sizin işiniz deyil.

Anri basketbol oynamaq istəyirdi, amma uzaqda durur və səsini çıxarmırdı.

**Suallara cavab verin:**

- Necə düşünürsünüz, burada ədalətsizlik nədə verilir? Diskriminasiya?
- Özünüzü Anrinin yerində təsəvvür edin, nə hiss edərdiniz?
- Yerində olmaq istəmədiyiniz qəhrəmanları sadalayın. Nə üçün?

Onların yerində olsaydınız, necə hərəkət edərdiniz?

- Əgər belə bir vəziyyət sinfinizdə və ya həyatınızda yaransaydı, nə edərdiniz?
- Vəziyyətdə bulinqin hansı növü göstərilir?

## Tapşırıq 2

Oxuyun, məhdud imkanlı insanlara qarşı diskriminativ yanaşma hansı forma ilə ifadə oluna bilər:

- Məhdud imkanlı uşağı kafedə və ya supermarketdə görəndə insanlar onu göstərir və sıxışdırırlar.
- İnsanlar uşağın valideynlərinə uşaq haqqında ürək ağrıdan suallar verirlər.
- İctimai və ya özəl müəssisələrin məhdud imkanlı insanlar üçün lazımi təchizatları və avadanlıqları yoxdur.
- Dostlar və qohumlar məhdud imkanlı insanla münasibətdən boyun qaçırırlar.
- Məhdud imkanlı insanlara qarşı alçaldıcı ləqəblər səslənilir.
- Bu insanların öz acılarını və kədərlərini başqaları ilə bölüşdürmək istəyinə ya etinasız yanaşılır və ya sadəcə, onlar soyuqqanlı cavab alırlar – “hər şey yaxşı olacaq”.
- Yadınıza salın, bu növ diskriminasiya misalını ətrafınızda müşahidə etmisinizmi?
- Necə düşünürsünüz, belə bir halla üzləşdikdə nə etməlisiniz?

## Tapşırıq 3

Bulinqlə əlaqədar sinifdə diskussiya aparın, “qurbanın” mümkün problemlərini müəyyənləşdirin.

## Tapşırıq 4

Sözün qüvvəsindən danışılan gürcü atalar sözlərini, təmsilləri yadınıza salın.

## Layihə üzərində iş – IV pillə: Problemin həlli yollarının axtarışı və layihənin planlaşdırılması

**Dördüncü pillənin təsviri:**

Layihə üzərində işin dördüncü mərhələsində tədqiqat nəticəsində alınan məlumatların üzərində işləyəcək, onları analiz edəcək və yekunlaşdıracaqsınız. Əldə edilən informasiyaya əsaslanaraq problemin həlli yollarını axtarır və planlaşdırırsınız ki, arzu olunan nəticəni necə əldə etmək olar. Siz artıq seçilən problem haqqında tam məlumata maliksiniz. Tərəfinizdən keçirilən tədqiqatın nəticələri ilə sinfi tanış edin. Müzakirə edin ki, qeyd edilən problemin həllində kim cavabdehdir. Seçilən problemin həllində kim müsbət/mənfi təsir göstərə bilər. Qruplarda işləyin, problemin həllinin ehtimal olan yollarını işləyib hazırlayın və sinifdə diskussiya vasitəsilə onların arasında ən yaxşısını seçin. Problemin həllinin ən yaxşı yolunu seçdikdən sonra qeyd edilən problemi necə həll etməyi planlaşdırmağa başlayın.



# Mövzu 4



# Vətəndaşa cəmiyyətdən və cəmiyyətə vətəndaşdan nə lazımdır



Mövzu 4

# Vətəndaşa cəmiyyətdən və cəmiyyətə vətəndaşdan nə lazımdır



## Dərs 5

"Azadlıq heç də sənin istəyinlə yaşamaq deyildir, əksinə azad insandan daha çox təmkinli olmağı tələb edir, nəinki quldan. Qul olmağı isə heç istəmirəm".

*Otar Çiladze*

Yaşamaq, azadlıq, xoşbəxtliyə can atmaq təbii hüquqlardır. Bu hüquqlar insana doğularkən verilir. Məhz bu və digər hüquqları müdafiə etmək məqsədilə hökumət yaradılır və əgər bu sonuncu vətəndaşların hüquqlarını qorumursa, o zaman xalq mövcud olan idarəetməni dəyişə və ya ləğv edə və yeni hökuməti seçə bilər.

Hüquqlarımızı qoruya bilməyimiz üçün bu hüquqların mahiyyətinə varmaq lazımdır. İnsanın doğulduğundan sahib olduğu və vətəndaşın ictimai işlərə cəlb olunmasına səbəb olan hüququnu nəzərdən keçirək. Bu - azadlıqdır.

İmereti yepiskopu Qabrielin fikrincə, azadlıq "insanın birinci xeyirxahlığıdır". Azadlıq: "özün üçün arzulamadığını başqasına etməməkdir; və sənin hüququn başqasının hüququ başlandığı yerdə bitir".

İnsanın hərəkəti azad ola və olmaya bilər. İnsan öz iradəsi ilə hərəkət etdikdə azaddır və başqasının iradəsi ilə, onun diktəsi ilə hərəkət etdikdə azad deyil.

İnsan təbii və ictimai amillərin birliyindən ibarət mühitdə yaşayır. Təbiət öz hadisələri ilə, dövlət öz qanunları ilə, ictimaiyyət öz ənənələri ilə, dəyərləri və əxlaq normaları ilə ona təsir göstərirlər. Ətraf mühit insanla xarici, yad qüvvə kimi qarşı-qarşıya gəlir, onu müvafiq şəkildə hərəkət etməyə məcbur edir. Amma insan bu təsirin qarşısında dayana və onun əksinə hərəkət edə bilər, yəni ətrafdakı şəraitdən asılı olmayaraq hərəkət edə bilər.

İnsan öz istəyinin quluna çevrilməməlidir, yəni azadlıq özbaşınalığa çevrilməməlidir.

Gördüyünüz kimi azadlıq elə bir haldır ki, bu zaman şəxsiyyəti bu və ya digər işi görməyə heç kim məcbur etmir. Amma unutmayın ki, insana heç vaxt tam azadlıq verilmir. Onun ağlına gələn hər şeyi etmək hüququ yoxdur. İnsanın azadlığını başqa-başqa qanunlar məhdudlaşdırırlar, amma məsuliyyət əsas senzordur. Azadlığın mühüm şərti məsuliyyətdir. Azadlıq olmayan yerdə məsuliyyət də olmur. Hər bir insan öz əməllərinə görə məsuliyyət daşıyır: siyasətçinin siyasi məsuliyyəti var, müqəssirə hüquqi məsuliyyət təsis edilir, əxlaqi məsuliyyətə məhkum edilənin öz vicdanı və ümumbəşəri və demokratik dəyərləri olur. Şəxsiyyətin hüquqları və azadlıqları insanın təbiətindən irəli gəlir. Onlar insanda ona görə olur ki, o, insandır. Vəzifələrə gəldikdə isə şəxsiyyət bunları dövlət qarşısındayerinə yetirir. Vəzifələrin yerinə yetirilməməsi üçün dövlət vətəndaşı mühakimə edə bilər.

Beləliklə dövlət hökuməti onun üçün mövcuddur ki, xalqa xidmət etsin və əksinə olmasın ki, xalq hökumətə xidmət edə. Bu, demokratiyanın əsas prinsiplərindən biridir. Başqa cür desək, demokratik ölkədə xalq - ölkə vətəndaşlarının (subyektlərin deyil) birliyidir. Belə ki, dövlət öz vətəndaşlarının hüquqlarını qoruyur, vətəndaşlar isə öz tərəflərindən özlərinə, ailəyə, cəmiyyətə, dövlətə qarşı həvalə edilən vəzifələri yerinə yetirirlər. Demokratik dövlətdə vətəndaşlar hüquqlar və azadlıqlarla faydalanırlar ki, ölkənin ictimai həyatında iştirak etsinlər. Tez-tez ictimai həyata aktiv cəlb olunmada yalnız siyasi mübarizəyə cəlb olunma nəzərdə tutulur. Amma həqiqətdə vətəndaş iştirakı demokratik cəmiyyətdə daha geniş anlayışdır, nəinki seçki proseslərində onun iştirakı. Munisipal səviyyədə vətəndaşlar ictimai qruplar yarada və yerli özünüidarəetmənin işlərinin aparılmasında iştirak edə bilərlər. Dövlət səviyyəsində vətəndaşlar müxtəlif birliklərdə, həvəskarların təşkilatlarında, qeyri-hökümət təşkilatlarında birləşə bilərlər ki, demokratiyanın inkişafı işində xidmət göstərə bilsinlər. Amerika Birləşmiş Ştatlarının təhsil məsələləri üzrə keçmiş dövlət katibi, Nyu-York Universitetinin professoru Diana Raviç yazır:



„Demokratiya birlikdə yaşamaq və işləmək prosesi və vasitəsidir. O, hər bir vətəndaşın tərəfindən qarşılıqlı əməkdaşlığı, kompromisi və tolerantlığı tələb edir. Bu, ağır işdir. Azadlıq məsuliyyətdən azad olmaq yox, məsuliyyət deməkdir".

## Tapşırıq 1



E.ə. 431-ci ildə Afina və Sparta şəhər-dövlətləri arasında müharibə başladı. Bu dövrdə Afina arqontu Yunan-Sparta müharibələrinin qəhrəmanı olan Perikl idi. Mübarizədə həlak olan afinalı əsgərlərin dəfn mərasimində o, təntənəli vida sözlərini söylədi. O, öz çıxışında diqqəti Afina dövlətinin və ictimaiyyətinin idealları və həyat qaydasına yönəltmişdi.

- Mətni diqqətlə oxu;
- Afina dövlət idarəçiliyinə xarakterik olan əlamətləri, cəmiyyətdə mövcud dəyərləri və afinalı vətəndaşların həyat qaydalarını göstərən sözləri ayrı-ayrılıqda yazın.

### Lüğət

Şəhər-dövlət – (yunanca, - Polis) müstəqil, muxtar təsisat. Qədim Yunanıstanda şəhər-dövlətlər mədəniyyətin ayrı-ayrı idarəetmə vahidləri idilər. Onların ümumi dilləri, dini təsəvvürləri və dünyagörüşləri var idi. Amma qanunvericilik və şəhərin idarəetməsi suveren dövlət prinsipinə əsasən təqdim olunurdu. Yunanlar şəhər-dövləti polis adlandırırdılar. Politika (siyasət) termini məhz buradan götürülmüşdür.

... Dövlətimizin quruluşu üçün heç bir yad qayda götürməmişik. Əksinə, bizim özümüz başqaları üçün nümunə göstəririk. Və bizim şəhərimizi bir ovuc insanlar deyil, xalqın əksəriyyəti idarə etdiyindən, dövlətimizin quruluşu xalqın idarəetməsi adlanır. Şəxsi işlərində hamı qanun əsasında eyni hüquqlarla faydalanır; dövlət işlərinə gəldikdə isə mötəbər şəxs dövlət vəzifəsinə dəyərləri əsasında özünü hər hansı bir ada mənsub olduğu qüvvəsi ilə deyil, şəxsi işi ilə irəliləyən biri keçir. Yoxsulluq mötəbər vəzifəni tutmaqda əngəl olmur... Biz ictimai işlərdə qanunları pozmur, hökumətə

və qanunlara tabe olur, xüsusilə də hüquqları pozulanları müdafiə edirik… Biz azad yaşayırıq…. Zənginlik bizim üçün böyüklüyə nail olmaq vasitəsi deyil. O, yeni nailiyyətlər üçün bir imkandır. Yoxsulluğu etiraf etməyi rüsvay hesab etmirik, amma onu dəf etmək mümkün olmadıqda, həqiqi gerilikdir. Vətəndaşlarımız həm ictimai, eləcə də, fərdi vəzifələrini alnıaçıq yerinə yetirirlər. Digər dövlətlərdən onunla fərqlənirik ki, biz ictimai işlərdən özünü uzaq tutan insanı "sakit" deyil, faydasız vətəndaş hesab edirik. Siyasətin bütün məsələlərini tək-tək və diqqətlə nəzərdən keçirir və onları müzakirə edirik, çünki ümumi müzakirə xaricində hər bir başlanğıcın ömrünün qısa olduğuna inanırıq. Bizim fərqləndirici xüsusiyyətimiz odur ki, həm hərəkətlərimizdə qorxmazıq (riskliyik) və həm də bu hərəkətlərə başladıqda çox düşünürük…. Bir sözlə, mən təsdiq edirəm ki, şəhərimiz bütöv Ellada məktəbidir və düşünürəm ki, bizlərdən hər birimiz fərqli həyat şərtlərində asanlıqla və uyğunluqla şəxsiyyətini büruzə verə bilər.

**Suallara cavab verin:**

- Afinada cəmiyyət vətəndaşdan nəyi tələb edir və dövlət öz vətəndaşlarını nə ilə təmin edir?
- Sizin fikrinizcə, Perikl nə üçün ictimai işlərdən uzaq olan insanı "sakit" deyil, faydasız insan adlandırırdı?
- Tanışlarınızın arasında Periklin faydalı hesab etdiyi insanları sadalaya bilərsinizmi? Nə üçün? Mətni oxuduqdan sonra aldığınız informasiyanı aşağıda verilən cədvələ yazın.

| **Afina idarəetməsinə xas olan əlamətlər** | **İctimai dəyərlər** | **Afina vətəndaşlarının həyat qaydası** |
|---|---|---|
| | | |

## Tapşırıq 2

"Canlı ölüyə bənzəyən insan faydasızdır ki, dünyada olarkən dünyanın qayğısına qalmasın".

**Suallara cavab verin:**

- Periklin sözləri və Nikoloz Barataşvilinin bu ifadəsi arasında ümumi olan nədir?
- Ölkənin ictimai inkişafına xüsusi töhfə verən gürcü ictimai xadimlərini yadınıza salın.
- Bir daha formalaşdırın, cəmiyyətə vətəndaşdan nə lazımdır və ya əksinə? Cəmiyyətə sizdən və sizə cəmiyyətinizdən nə lazımdır?
- Sizin fikrinizcə, Periklin dövründə Yunanıstanda vətəndaşların özlərini gerçəkləşdirmələri üçün əlverişli şərait var idimi və ya yox? Fikrinizi əsaslandırın.
- Müasir Gürcüstanda belə bir şərait varmı və ya yox? Fikrinizi əsaslandırın.

## Tapşırıq 3



Otar Çiladze – XX əsrin məşhur gürcü şairi, prozaiki, dramaturqu, esse yazarı, ssenaristi, "Dövrünün səmimi səlnaməçisi" – həyatının mənasını sonrakı sözlərlə ifadə edir: "hər necə patetik səslənsə də, mənim həyatımın kredosu Vətən və həqiqətdir! Başqa idealları axtarmaq hələlik bizim üçün cinayət yox, açıq-aşkarcasına naz-nemətdir. Naz-nemət, əlbəttə ki, yaxşıdır, amma hələlik naz-nemətə layiq olmaq, yəni onu qazanmaq lazımdır, yenə də və yenə də vətənə və həqiqətə qulluq etməklə".

Otar Çiladzenin sözlərindən bir parçanı oxuyun. O, bu sözləri 1989-cu ilin 9 Aprel faciəsindən sonra söyləmişdi:

**"Qəddarlığı pisləyirəm!"**

***(radioçıxış 1989 ilin aprelin 11-i)***

„Bütün varlığımla qisas almanın bu cür barbar metodunu, qurbanlara qarşı həyasızcasına hərəkətin qeyri-insani qəddarlığını pisləyirəm. Təəssüflər olsun ki, biz aprelin 9-da bunların şahidləri olduq. Həmin gecə yəqin ki, dünya tarixində yeni "Varfolomey gecəsi" yazıldı. Bizim yaddaşımızda isə əbədi gecə olaraq qalacaq – heç vaxt sübh açılmayacaq, sabahkı gündən həyat yollarımız necə getsə də. Bizi, məsələn, siyasi müqəssirlər kimi mühakimə etmədilər, bizi qaranlıqda mühakimə etməyərək sürünənlər kimi əzib öldürdülər. Ən böyük günahımız isə azadlığa can atmağımız idi və başqa heç nə. Azadlığa can atma isə,

ümumiyyətlə, insanın əsas xüsusiyyətidir və bunda anlaşılmaz, gözlənilməz və həddini aşmayan və ən əsası, başqalarından bizi fərqləndirən heç nə yoxdur. Əksinə, əgər bənzətmək istəsək, bu ən alicənab xüsusiyyət və ya tələbat bizi özünü müəyyənləşdirmə, özünü gerçəkləşdirmə, özünü tanıma yolunu başqalarından öncə keçmiş xoşbəxt xalqlara bənzədir. Bu yolu, gec və ya tez, bütün xalqlar keçməlidirlər və sözsüz ki,eləcə də biz. Amma iş ondadır ki, bu yolu kim necə keçəcəkdir, yəni sonuna qədər keçəcəkmi və ya yolun ortasında ilişəcəkmi, çaşacaqmı, səhv salacaqmı…. Qaranlıqdan işığa birbaşa çıxış təhlükəlidir – işığı unutmuş kor ola bilər və ən adi maneə də taleyimizi həll edə bilər…”



**Suallara cavab verin:**

- 9 aprel qəhrəmanlarını nə üçün unutmamalıyıq?
- Onların etirazlarının məqsədi nə idi?
- Onlar insanın hansı azadlığını müdafiə edirdilər?
- Qaranlıqdan işığa birbaşa çıxış təhlükəlidir – işığı unutmuş kor ola bilər və ən adi maneə də taleyimizi həll edə bilər…” – necə fikirləşirsiniz, mətnin müəllifi bu sözlərdə nəyi nəzərdə tuturdu?

**Tapşırıq 4**

"Zor tətbiq etmədən hərəkət" – bu termin ədalətsizliyə qarşı etirazın xüsusilə dinc formasını nəzərdə tutur. Burada göstərilən şəxsiyyətlər başqa-başqa ölkələrin, başqa-başqa millətlərin övladlarıdırlar, başqa-başqa zəmanədə yaşayırdılar, amma onların hamısını zorakılıq tətbiq etmədən sülh uğrunda mübarizə birləşdirir.
Məhz bunun üçün də dünya onların fədakarlığını etiraf edir, öz ölkələrində isə onlar milli qəhrəman adına layiq görülmüşlər.
Məşhur hüquq mühafizəkarları haqqında verilən məlumatı diqqətlə oxuyun.




***„Bizim missiyamız yalnız Hindistanı azad etməklə kifayətlənmir. O, bu anlayışın analiz edilməsini, insanların dostluğunu və qarşılıqlı anlayışı nəzərdə tutur".***

*Mahatma Qandi*

## Mahatma Qandi

Mohandas Karam Cand Qandi, eyni Mahatma Qandi ("Mahatma" hind yazıçısı Taqor adlandırmışdı, bu da "böyük qəlb"mənasını verir) Hindistanın Milli-Azadlıq Hərəkatının tanınmış liderlərindən biri idi. O, ixtisasca hüquqşünas idi. Mahatma Qandi Hindistan xalqını Böyük Britaniyadan azad olmaq üçün zorakılıq tətbiq etmədən itaətsizliyə, yəni dinc yolla nümayişə səsləyirdi. Yerli sənayeni bərpa etmək məqsədilə o, Britanıya sənayesinə boykot elan etdi. Özü də Avropa libaslarından imtina etdi. Əldə işlənilən parçadan hind paltarını və kəndli səndəllərini geydi. Qandi hindli qadınları gündəlik ev şəraitlərində ənənəvi hind parçasını "xadi"-ni hazırlamağa səslədi. Bu qərar ingilis parçaçılıq istehsalının Hindistanda gerçəkləşdirilməsinə mane olur və Hindistanın iqtisadi müstəqilliyinə dəstək verirdi. Hindistanın müstəqilliyinin Qandisayağı planı iki hissədən ibarət idi:

1. Hindistan ingilis mallarını qəbul etməməli idi;
2. Hindistan ingilis qanunlarına qarşı itaət göstərmədiyini elan etməli idi.

Mahatma Qandi öz prinsipləri, inamı, qeyri-zorakı əməlləri ilə 200 000 insanın şüuruna təsir göstərdi və onları birləşməyə və birlikdə zorakılığa qarşı hərəkət etməyə inandırdı.Hind xalqının və Qandinin fədakar etirazı – onlar ingilislərlə əməkdaşlıqdan imtina edir, etiraz marşlarını təşkil edir, məhbusluqdan qorxmurdular və s. öz nəticəsini verdi.Sonda, 1947-ci ildə Hindistan müstəqil dövlət adını qazandı.

## Vaslav Havel "Çexiya əfsanəsi"

Vaslav Havel – çex dramaturqu, esseçi, dissident və siyasətçi 1936-cı doğulmuşdur. O, Çexoslovakiyanın sonuncu və Çexiyanın ilk prezidenti idi. Havelin 13 illik idarəetmə dövründə ölkə radikal dəyişikliklərə məruz qaldı, o cümlədən ölkənin inkişafının demokratik yolu seçildi, Slovakiyadan ayrıldı, Avropa İttifaqına üzvlüyə dialoq başlanıldı və s. Slovakiya (slovaklar və çexlər bir ölkədə, Çexoslovakiyada yaşayırdılar) müstəqillik elan etdikdə Havel söylədi ki, təəssüfedici haldır ki, slovaklar onlarla birlikdə (çexlərlə) yaşamaq istəmirlər, amma slovaklar bu iradələrini referendumla ifadə etdikdə çexlər onların (slovakların) iradələrinə tabe olmalıdırlar. Buna görə Haveli çoxları tənqid edir, Çexoslovakiyanın parçalanmasında günahlandırırdılar, amma vaxt keçdi və Havelin düzgün hərəkət etdiyi və ölkəsini qanlı müharibədən qurtardığı etiraf olundu. Bütün bunlar 1989-cu ildə baş vermişdi. Vaslav Havelin rəhbərliyi ilə çexlər Şərqi Avropada "məxmər inqilabının" vasitəsilə Sovet rejimini məğlub edən birincilər idilər.

Çexoslovakiyaya oxşar olaraq "məxmər inqilabın" dalğası Şərqi Avropanın başqa ölkələrini də bürüdü (Polşa, Macarıstan). Belə bir "qansız" metodla bəzi postsovet rejimi sona çatdı (2003-cü il – "Qızılgüllər inqilabı" Gürcüstanda; 2004-cü il – "narıncı inqilab" Ukraynada; 2005-ci il – "qərənfillər inqilabı" Qırğızıstanda).



***„Bir çox hallarda Praqanın baharını hökumətin iki qruplaşması arasında toqquşma kimi başa düşürlər: biri sistemi olduğu şəkildə qoruyub saxlamaq, ikincisi isə onu yenidən qurmaq istəyirdi. Sistemi dəyişdirməyə çalışan kommunist siyasətçilər birdən-birə ağıllandıqlarına görə planlarını dəyişmədilər, onlar ictimai fikrin təsirinə məruz qaldıqlarına görə dəyişdilər".***

*Vaslav Havel*



"Ukraynada narıncı inqilab"



"Qırğızıstanda qərənfillər inqilabı"



"Gürcüstanda qızılgüllər inqilabı"

**Lüğət**

Kommunizm – ictimai-siyasi ideologiya. Ona əsasən həm hökümət, eləcə də mülkiyyət cəmiyyətin əlində olmalıdır. İctimai firavanlıq ümumilikdə əlçatılan olsun. Marksist nəzəriyyəsinə əsasən kommunizm ictimai inkişafın son nöqtəsi, sinifsiz ictimaiyyətdir. Cəmiyyətin hər üzvü qabiliyyət və imkanları çərçivəsində çalışır, amma tələbatına əsasən alır.



"**Qəddarlığa itaət etməmək firavanlığın dəstəkləndirilməsi kimi mənəvi vəzifədir**"

*Martin Lüter Kinq*

## Martin Lüter Kinq

1929-ci ilin yanvarın 15-də Atlantada (Corcia Ştatı, ABŞ) qaradərili ailədə dünyaya gəlmişdir. ABŞ-da quldarlığın ləğv olunmasına baxmayaraq qaradərili əhali son dərəcə ehtiyac içində yaşayır və diskriminasiyaya məruz qalırdı. Kinq irqçiliyə qarşı hərəkatın lideri idi. O, dinc yolla bərabərliyin əldə edilməsini istəyirdi.Onun zorakılıq xaricində hərəkətlərinin – dinc nümayişin, iqtisadi boykotların, kütləvi çıxışların nəticəsində ABŞ konqresi hüquqlar haqqında aktı qəbul etdi. Martin Lüter Kinq dərindən inanırdı ki, dözümlülük və sevgi zorakılığa və nifrətə üstün gələcəkdir. Onun siyasi mübarizəsinin iş planı məhz bu prinsipə əsaslanırdı:

1. Bir insan və insanlar qrupu ədaləti bərpa etmək üçün zorakılıqdan istifadə etməməlidir, çünki ikinci, alternativ yol mövcuddur.
2. Zorakılıq xaricində hərəkət nə deməkdir? Əsas xüsusiyyət – heç vaxt rəqibi alçaltmamalı, onu məhv etməyə çalışmamalı, onun sevgisini, anlayışını və hörmətini qazanmaq lazımdır.
3. Bu siyasətin məqsədi odur ki, hərəkət konkret insanlara yönəlməməli, bu insanların qurban olduqları qəddarlığa və ədalətsizliyə yönəlməlidir.
4. Bu siyasətin əsas prinsipi ondadır ki, başqalarının dərdinə şərik çıxmalı, zorakılığa zorakılıqla cavab verməməli və qisas haqqında düşünməməli.
5. Zorakılıq xaricində hərəkət təkcə xarici və fiziki zorakılığı deyil, eləcə də insanın ruhuna və şüuruna zorakı təsiri də istisna edir;
6. Bu siyasət inanırdı ki, dünyadakı qayda-qanun ədalətə əsaslanır. Bu isə işıqlı gələcəyə inam verir.

20-ci əsrin 60-cı illərində irqi bərabərlik üçün mübarizə öz kulminasiya anına çatdı.

1963-cü ildə Vaşinqtonda 300 000 insan dinc nümayiş keçirdi. Nümayişdə bütün gün ərzində mahnılar səslənir, sözlə çıxış edilirdi. Mitinqin ən əhəmiyyətli anı Martin Lüter Kinqin çıxışı idi.



## Nelson Mandela

Nelson Mandela 1918-ci ildə dünyaya gəlmişdi. O, hüquq təhsilini almışdı. 1952-ci ildən "Afrika Milli Konqresinin" aktivisti idi. Ölkədəki aparteidə qarşı hərəkət edir, qaradərililərin hüquqlarını qoruyurdu. O, yeddi həmfikiri ilə ömrünün 27 ilini həbsxanada keçirmişdi. Həbsxana xarici aləmdən təcrid olunmuş bir adada yerləşirdi və burada o, vərəm xəstəliyinə yoluxdu.

1990-cı ildə Cənubi Afrika Milli konqresinin lideri həbsxanadan buraxıldı və 1994-cü ildə ölkənin prezidenti oldu.

Mandela hökumətinin əsas məsələlərini səhiyyə, təhsil və iqtisadi sabitlik təşkil edirdi. O, daim öz xalqını – qaradərili çoxluğu və ağdərili afrikalıları bir-birini anlamağa və sevgi ilə yanaşmağa səsləyirdi. Qaradərili afrikalıların əvvəllər nifrət etdikləri ağdərili həmvətənləri olan raqbiçilər dəstəsinə azarkeşlik etmələri Mandelanın irqi diskriminasiyanı dəf etməsinin bariz nümunəsidir. 1995-ci ildə dünya kubokunda qarşılıqlı sevgi və bərabərlik əlaməti olaraq Mandela "Sfinksboksların" (ağdərili raqbistlər dəstəsinin adı) maykasını geyinib dəstənin ağdərili kapitanına mükafatı şəxsən təqdim etdi.

Nelson Mandelanın avtoriteti Cənubi Afrikanın ictimai həyatında böyük rol oynayırdı. Onu bu gün də "ailənin başçısı", yəni "madiba" çağırırlar.

2009-cu ilin noyabrında BMT-nin Baş Assambleyası 18 iyulu "Mandela günü" elan etdi.



***"Heç kim dərinin rənginə, fərqli mənşəsi və dini olan insanlara qarşı nifrət hissi ilə doğulmur. Bu nifrəti insanlar öyrənirlər və bu nifrəti öyrənmək mümkün olduğuna görə, məhəbbəti öyrənmək də mümkün olmalıdır.***

*Nelson Mandela*

**L ü ğ ə t**

BMT – Birləşmiş Millətlər Təşkilatı. 1945-ci ilin iyunun 26-da yaradılmışdır.



„Əgər bir-birimizlə ümumi dil tapmasaq, o zaman qaranlıq dövrü gələ bilər və biz onda kor olmuş əbəs yerə bir-birimizi axtarmağa başlayarıq və tapa bilmərik”.

*Merab Kostava*

## Merab Kostava

Gürcüstanın azadlığı, müstəqilliyi üçün kommunist rejiminə qarşı zorakılıq xaricində etiraz yolları ilə mübarizə aparan mübarizəçi, Milli hərəkatın lideri Merab Kostava 1939-cu ilin mayın 26-da Tbilisi şəhərində doğulmuşdu.

Merab Kostava öz mübarizəçi yoldaşları ilə birlikdə ilk vətənpərvər qeyri-leqal təşkilat “Qorqasali”-nin əsasını qoymuşdu. Təşkilatın üzvləri dinc etiraz nümayişləri ilə Sovet rejiminə qarşı yürüş aparırdılar. Bunun üçün onuncu sinif şagirdi həbs edilmişdi, amma yetkinlik yaşına çatmadığına görə onu altı aydan sonra şərti mühakimə ilə azadlığa buraxmışdılar.

1972-ci ildə Merab Kostava Zviad Qamsaxurdiya ilə birlikdə Gürcüstanda insan hüquqlarının müdafiəsinin təşəbbüskar qrupunu təşkil edir. Ona qarşı repressiyaların ardı-arası kəsilmir, 10 il didərgin düşür, məhbusxanalarda yerləşdirilir. Onun qayıdışı milli-azadlıq hərəkətinin fəallaşdırılmasına səbəb oldu və ölkənin müstəqilliyi dəyişilməz bir prosesə çevrildi.

Merab Kostava demək olar ki, 1987-1989-cu illərdə keçirilən bütün etiraz aksiyalarının, nümayişlərin, tətillərin, aclığın və nümayişin təşkilatçısı idi. O, qeyri-zorakı etirazın hər bir forması ilə sülh üçün,gürcü xalqının, cəmiyyətinin birləşməsi üçün mübarizə aparırdı.

Merab Kostava 1989-cu ilin oktyabrın 13-də Borit kəndi yaxınlığında faciəvi şəkildə həlak oldu.

1993-cü ilin sentyabrında Zuqdidi şəhərində Gürcüstan Respublikasının Ali Şurası üçüncü çağırışın ikinci sessiyasında Merab Kostavanı milli qəhrəman adı ilə təltif etdi.

Merab Kostavanın fəaliyyətinin əsas prinsipi idi: ədalət, mübarizənin dinc metodu, nəticəyə nail olmaq üçün cəmiyyətin bütövləşməsi, şəxsiyyətin daxili azadlığı.

### Suallara cavab verin:

- İnsan hüquqlarının təqdim edilən müdafiəçilərini birləşdirən nədir?
- Onların fəaliyyətlərindən əhəmiyyətli mərhələlərini ayırın;
- İnsan hüquqlarının müdafiəçilərindən daha kimi yadınıza salardınız?

**Tapşırıq 5**

**Gəlin, məktəbimizdən başlayaq:**

- formalaşdırın ki, şagirdə (müəllimə, məktəbin hər hansı bir başqa əməkdaşına) məktəbdən nə lazımdır və məktəbə şagirddən (müəllimdən, məktəbin digər əməkdaşından) nə lazımdır?
- Qısa analiz edin ki, məktəbin və ya yerli özünüidarəetmənin hansı fuksiyaları var; problemi həll etmək üçün nə üçün onlara müraciət etmək lazımdır; bu yol nə üçün demokratikdir.

**Tapşırıq 6**

**İbrətli hekayə – Hansı münasibətimiz var:**
„İki müdrik dünyaya səyahət etmək üçün yola düşürlər ki, xalqın necə yaşadığını öyrənsinlər. Bir balaca şəhərdə onlar özlərini çox qəribə aparan insanları görürlər. Bu insanlar dayanmadan nəhəng daşları harasa daşıyırdılar. Bir baxışdan onların çox əziyyət çəkdikləri hiss edilirdi, qabar olmuş əllərindən qan, əzab çəkmiş üzlərindən tər axırdı. Müdrik kişilər onların nəyə xidmət etdikləri ilə maraqlandılar.
– Nə edirsən? – onlardan birindən soruşdular.
– Daşları daşıyıram, - cavab belə idi.
– Sən nə edirsən? – ikincidən soruşdular.
– Uşaqlar üçün bir tikə çörək puluna işləyirəm.
– Bəs sən nə edirsən?
– Allahın məbədini qururam!
Bu zaman müdriklər həyatın həqiqətini anlaya bildilər.
**"Əsas nə etdiyin deyil, əsas bu işə necə yanaşmağındır".**

Eyni iş bir insan üçün əziyyət və ağrı verə, digərinə isə xoşbəxtlik yaşada bilər. Biz ən pis vəziyyətdə də nə isə yaxşı bir şeyi tapa bilməliyik. Çünki şübhəsiz ki,vardır. Sadəcə, ətrafa yaxşı nəzər salmalı, adidə qeyri-adini görə bilməliyik – yalnız bu yolla həyatımızı tam dəyişə bilərik.

**İbrətli hekayəni oxuyun və suallara cavab verin:**
- Yadınıza salın, nə zaman eyni işi görən insanların bu işə qarşı fərqli münasibətləri olur? İzah etməyə çalışın.
- İbrətli hekayəti aktiv vətəndaşın xüsusiyyətləri ilə - məsuliyyətlə, münasibətlə, təşəbbüslə, iştirak etmək istəyi ilə, sevgi ilə və xeyirxah əməllə və s.ilə əlaqələndirin.

## Layihə üzərində iş – V pillə: layihəni yazmaq

**Beşinci pillənin təsviri:**

Siz artıq layihə təklifi üçün seçilmiş problem haqqında kifayət qədər məlumat topladınız. Layihə üzərində işin bu pilləsində toplanılan informasiyadan, portfoliodan istifadə etməklə layihəni yazmağa başlayın. Yenə də qruplara bölünün və qruplardan hər biri portfolionun bir hissəsi üzərində işləməlidir. Bu hissələr sizin tərəfinizdən keçirilən işi təsvir etməli və layihənin inkişafının qrupunuzun işlədiyi komponenti təqdim etməlidir.

Portfolioya tapdığınız materialı və eləcə də fotoşəkilləri, yazıları və digər növ işləri əlavə edin. Nəzərə alın ki, maraqlanan şəxs portfolio ilə tanışlıqdan sonra seçilən problem və onun həlli yolları haqqında tam məlumata malik olmalıdır. Portfolio həm elektron resursdan, eləcə də çap materialından və şagirdin əlyazmasından ibarət ola bilər.



### Portfolionun qiymətləndirmə kriteriləri

Portfolionuzun yaxşı təşkil edilib edilmədiyini yoxlamaq üçün bir-birinizə suallar verin:

- Portfolionuz problem və onunla əlaqədar məsələlər haqqında ətraflı informasiyadan ibarətdir və ya yox?
- Portfolionuzda artıq informasiya varmı?
- Portfolionuz aydın yazılmışdırmı? Qrammatik və orfoqrafik baxımdan düzgündürmü?
- Dəlillər və məsələlər aydın şəkildə formalaşdırılmışdırmı?
- İnformasiya dəqiqdirmi və ya yox?
- Bu informasiya əsas məsələlərə cavab verirmi?
- Bu informasiya problemin mahiyyətini anlamaqda oxucuya yardım edəcəkmi?



# Mövzu 5



# Aktiv vətəndaş üçün demokratik cəmiyyətin üstünlükləri

# Mövzu 5

# Aktiv vətəndaş üçün demokratik cəmiyyətin üstünlükləri

## Dərs 6

Siz dərsliyin ötən fəsillərində artıq demokratiyanın mənası ilə; aktiv vətəndaşlığın və vətəndaş cəmiyyətinin nəyi nəzərdə tutduğu, aktiv vətəndaşın vətəndaş cəmiyyəti ilə münasibətdə hansı vəzifələrinin olduğu ilə tanış oldunuz; eləcə də həmin fundamental dəyərlər və prinsiplərlə, hansılara əsasən bütün insanlar bir-birlərinin və qanunun qarşısında bərabərdirlər; eləcə də siz artıq bilirsiniz ki, demokratik cəmiyyəti məhz aktiv vətəndaşlar qururlar. Dərsliyin qarşıdakı fəsli alınan biliyi yekunlaşdırır. Layihə üzərində iş alınan biliyi təcrübədə istifadə etmək imkanını verir ki, cəmiyyət üçün mühüm problem üzərində çalışmaqla özünüzü fəal vətəndaş hiss edəsiniz.

Siz, həmçinin, insan hüquqları və tələbatları ilə və demokratik proseslərdə vətəndaşın fəal iştirakının əhəmiyyəti ilə tanış oldunuz. İctimaiyyətdə fəal vətəndaş necə formalaşır? Bunun əsası, ilk növbədə, bizlərdən hər birimizə ətrafdakılarla münasibətdə verilən məsuliyyəti dərk etməkdir.



Demokratik cəmiyyətdə vətəndaşın məsuliyyəti səviyyəsinə belə bir fundamental əhəmiyyət verildiyinə görə, elə məktəbdəcə rolunuzu və yaşadığınız mühitdə məsuliyyətinizi dərk etməyiniz xüsusilə vacibdir.

Məktəbi yalnız təhsil aldığımız yer kimi qəbul etməməliyik, məktəbə təhsil almaqla yanaşı yaşadığımız, böyüdüyümüz və şəxsiyyət kimi formalaşdığımız yer kimi baxmalıyıq; bir hissəsi olduğumuz ətraf mühitdə məsuliyyəti üzərimizə necə götürməyimizi və bu mühiti olduğundan daha da yaxşılaşdırmağı öyrənməliyik.

Məsuliyyəti üzərinə götürmək məhz onu bildirir ki, biz ehtimal olunan qərarların bütün mümkün alternativini, onun nəticələrini, başqa insanlara – ailə üzvlərinə, sinif yoldaşlarına, məktəbə, cəmiyyətə təsirini nəzərə alırıq; qərar qəbul etmək hüququmuzun olduğunu nəzərə alırıq, amma eyni zamanda bu azadlıq bizim üzərimizə məsuliyyət qoyur ki, tərəfimizdən qəbul edilən qərar başqasına mənfi təsir göstərməsin; biz öz hüquqlarımızı elə müdafiə etməliyik ki, başqalarının hüquqlarına da hörmətlə yanaşaq. Demokratik cəmiyyətin üstünlüyünü məhz bu təqdim edir ki, insanlar həm özlərinin, eləcə də başqalarının hüquqlarını qoruyur və həm özlərinin, eləcə də başqasının və ölkənin problemləri üzərində məsuliyyət daşıyırlar.

Ümumiyyətlə, məsuliyyət barəsində danışdıqda, məsuliyyətin bir neçə növü və səviyyəsini təhlil edirlər. Məs., özünüidarəetmənin, müxtəlif dövlət strukturunun, peşəkar və ya medianın, valideynin, müəllimin məsuliyyəti və s. Amma hər hansı bir halda, məsuliyyət müəyyən fundamental dəyərlərə və hüquqlara əsaslanır. Əsasən üç əsas səviyyə ayrılır: hüquqi məsuliyyət, vətəndaş məsuliyyəti və mənəvi məsuliyyət.

**Hüquqi məsuliyyət** qanunvericiliklə və müxtəlif normativ sənədlə müəyyənləşdirilmiş məsuliyyətdir.

**Vətəndaş məsuliyyəti** vətəndaşın məsuliyyətidir ki, özünün və başqalarının hüquqlarının qorunmasına və xoş güzəranına qayğı göstərsin.

**Mənəvi məsuliyyət** şəxsi münasibətləri, sosial, mənəvi və əxlaqi dəyərləri müəyyənləşdirən məsuliyyətdir.

Bir çox hallarda öhdəliyə götürülən məsuliyyətlərin, məs., mənəvi və hüquqi, yaxud da mənəvi və vətəndaş məsuliyyətlərini razılaşdırmaq mümkün olmur və bu qarşıdurmanın əsasında biz **dilemma** qarşısında qala bilərik.



**Lüğət**

Dilemma – 1. (mən.), iki, bir-birini istisna edən qaydalardan ibarət olan müzakirə və ya nəticədir, onlardan birinin seçilməsi vacibdir. 2. Elə bir vəziyyətdir, nə zaman xoşagəlməz imkanlardan birini seçmək lazımdır.

Daçi və Salome ən yaxın dostdurlar. Oyun zamanı Daçinin atdığı top pəncərəyə dəydi və şüşəni sındırdı. Bunu Salome də gördü. Müəllim günahkarı axtarmağa başlayanda Daçi şüşəni sındırdığını söyləyə bilmədi. Salome isə dilemma qarşısında qaldı ki, dostunun adını söyləsinmi və ya yox.

Fikirləşin, Salome qərar qəbul etməkdə nə üçün çətinlik çəkirdi.

Gördüyünüz kimi bir çox hallarda qərar qəbul etmək böyük çətinliklərlə əlaqədardır, çünki hər zaman hüquqların, məsuliyyətlərin və dəyərlərin harmonik ardıcıllığı mümkün olmur, əksinə onlar bir-birinə zidd olur və məhz bu ziddiyyət dilemmanı yaradır. Çətinliyi həm də o yaradır ki, qərar qəbul etdikdə yalnız “istəklərini” rəhbər tutmaq mənəvi və əxlaq məsuliyyətinin ali kateqoriyasına qarşı durur.

Elə ilk dərsdən siz layihə üzərində işə başladınız. Layihə üzərində işin məqsədi məhz ətrafınızdakı problem üzərində məsuliyyəti necə götürmək lazım olduğunu öyrənmək idi. Demokratik cəmiyyətdə insan birliklərinin bir çox formaları mövcuddur. Onlar ümumi ictimai firavanlığa tərəf can atırlar. Gürcüstanda bu cür təşkilatlar çoxdur. Məsələn, Gürcüstanda fəaliyyətdə olan xeyriyyə təşkilatlarını xatırlayaq:

- “İlk addım” fondu;
- “İavnana”ata-anasız və valideyn himayəsindən məhrum uşaqların fondu;
- Gürcüstanın Karitasisi;
- Katarzis.

Siyahıda adı çəkilməyən birliklər çoxdur. Bütün bu qeyri-hökumət təşkilatları sosial cəhətdən aztəminatlı insanlara yardım etmək üçün fəaliyyət göstərirlər. Dünyada insanların hüquqlarını müdafiə edən bir çox təşkilatlar var, məsələn:

İnsan Hüquqlarının Beynəlxalq Federasiyası

- „İnsan Hüquqlarının Beynəlxalq Federasiyası” (International Federation for Human Rights) http://www.fidh.org
- „Amnesty International “ http://www.amnesty.org
- Human Rights Watch http://www.hrw.org

- „Azadlıq Evi“ (Freedom House)
  http://www.freedomhouse.org

Bütün bu tip təşkilatlar həqiqi fikrin səfərbər olmasına və eləcə də, cəmiyyətdə vətəndaşlıq anlayışını artırmağa çalışırlar ki, hökumət orqanlarının qərarlarına təsir göstərsinlər. Bu cür maraqlar qrupları ayrı-ayrı fərdlər və hökumət arasında vasitəçi rolunu yerinə yetirirlər. Onların fəaliyyətlərinin nəticəsində - açıq müzakirələr, dialoq, kompromis və **konsensus** yolu ilə demokratik cəmiyyətdə vətəndaşların güzəranlarını yaxşılaşdıran qərarlar qəbul etmək mümkündür.

**L ü ğ ə t**

Konsensus – bütün fikirləri nəzərə almaqla qrupun ümumi razılaşmaya gəlməsi.

Demokratik cəmiyyətdə vətəndaşların dinc toplantılar keçirmək və zorakılıq xaricində öz etirazlarını bildirmək hüquqları var. Nümayişlər, petisiyalar, marşlar, mitinqlər, xalq nümayişləri, piketlər, proklamasiyalar və pamfletlər, plakatların sərgisi, şüarlar, etiraz məktubları, zalı açıq şəkildə tərk etmək, hökumət mükafatlarından imtina etmək, boykot, aclıq, etiraz tətilləri və s. etiraz formalarıdır. Onlar ədalətsizliyə qarşı yönəldilirlər. Etirazın bu cür formaları hər zaman demokratik cəmiyyətin ayrılmaz hissəsi idi. İctimai fəallığın yuxarıda sadalanan bütün vasitələri və metodları yalnız həqiqi demokratik cəmiyyətdə tam həyata keçirilə və real müsbət nəticə verə bilər.



Həqiqi demokratik cəmiyyətdə insanların ictimai həyatda müxtəlif şəkildə iştirak etməyə motivasiyaları olur, çünki burada hər bir vətəndaşın səsini həqiqətən də eşidirlər.

Demokratik cəmiyyət aktiv vətəndaşı formalaşdırır və əksinə, aktiv vətəndaş növbəti dəyərlərə əsaslanan demokratik cəmiyyəti yaradır:

**Yaşamaq:** heç kimin insanın yaşamaq hüququna mane olmağa hüququ yoxdur, yalnız sizin və ya başqalarının həyatı üçün təhlükə olduğu hallardan başqa.

**Azadlıq** şəxsi, siyasi və iqtisadi müstəqillikdən ibarətdir. Eləcə də toplantı azadlığını bildirir; bu zaman, xalqın öz inamını, nəzərlərini, ideyaları və öz fikirlərini ictimai şəkildə ifadə etməyə hüququ var

- **Şəxsi müstəqillik** – dövlət nəzarəti xaricində fikir və hərəkət hüququnu nəzərdə tutur;
- **Siyasi müstəqillik** – siyasi proseslərdə iştirak etmək hüququnu təqdim edir;

- **İqtisadi müstəqillik** - şəxsi əmlakın satışı, alışı və kommersiya məqsədləri ilə istifadə etmə hüququdur, eləcə də, dövlətin müdaxiləsi xaricində fəaliyyətin/əməyin/işin hüququdur.

**Ədalət** nəzərdə tutur ki, bütün insanlar eyni şəkildə ictimai mənfəəti və öhdəlikləri bölüşdürməlidirlər. Heç kimin fərdi və ya qrup üstünlüyünə hüququ yoxdur.

**Bərabərlik** nəzərdə tutur ki, bütün insanların siyasi, sosial və iqtisadi bərabərlik hüquqları var. İrqinə, cinsinə, dininə, mənşəyinə və iqtisadi statusuna baxmayaraq hamının bərabər olmağa hüququ var.

**Müxtəliflik** insan qruplarının mədəni, dil, dini və ya etnik fərqlərinin tanınmasını nəzərdə tutur. Bu da güclü ictimaiyyətin xüsusiyyətlərini təqdim edir.

**Həqiqət:** hökumət xalqı aldatmamalı və məlumatı gizlətməməlidir. Nə hökumətin və nə də ki, xalqın aldatmaq hüququ yoxdur.

**Xalq suvereniteti** nəzərdə tutur ki, hakimiyyət gücünün başlanğıcı xalqdır.

**Vətənpərvərlik:** xalq ölkəsinə və onun dəyərlərinə qarşı sevgisini və sədaqətini həm sözlə, eləcə də hərəkəti ilə bildirir və ölkənin firavanlığına qayğı göstərir.

**Qanunatabeçilik:** həm xalq, eləcə də hakimiyyət qanuna tabe olmalıdır.

**Güclərin bölünməsi:** hakimiyyətin icraçı, qanunverici və məhkəmə şaxələri təsisatlara bölünməli və yalnız bir şaxə bütün hakimiyyəti daşımalı deyil.

**Təmsilçi hökümət:** xalqın hüququ var ki, hökumətdə özünün təmsilçisini seçsin.

**Nəzarət və balans:** hakimiyyətin hər üç, icraçı, qanunverici və məhkəmə şaxə gücləri tarazlaşdırılmalı və heç biri dominant olmamalıdır. Hər bir şaxənin hüququ var ki, digər ikisinin işinə nəzarət etsin.

**Fərdi hüquqlar:** hər bir insanın yaşamaq, azadlıq, iqtisadi müstəqillik və xoşbəxtlik hüququ var.

## Layihə üzərində iş- VI pillə: Layihənin təqdimatı

**Altıncı pillənin təsviri:**

Layihə üzərində işin altıncı pilləsini layihə üzərində işin son, yekun mərhələsi təqdim edir. Bu pillədə sizin tərəfindən işlənib hazırlanan layihəni nümayiş etdirməli və burada layihənin inkişafının tam dinamikasını təqdim etməlisiniz – qeyd edilən problemi nə üçün seçmisiniz, onun haqqında informasiyanı necə axtarmısınız, hansı tədqiqatı keçirmisiniz, problemin həlli yollarını necə müəyyənləşdirmisiniz, layihə üzərində işdə sizə hansı resurslar lazım gəlmişdir və bu problem necə və kimin tərəfindən həll olunmalıdır.

Portfolionu nümayiş etdirdikdə yadda saxlayın ki, sizin təqdimatınız növbəti məqsədlərə xidmət etməlidir:

- seçdiyiniz problemin əhəmiyyətini auditoriyaya göstərmək;
- problemin həllinin alternativ yollarını, onların müsbət və mənfi tərəflərini auditoriyaya göstərmək;
- problemin həllinin ən yaxşı yolu kimi sinfin qərarını təqdim edin;
- təsvir edin ki, layihənin həyata keçirilməsi baxımından seçdiyiniz strategiya müxtəlif sektorların, özünüidarəetmənin, biznes-sektorun, qeyri-hökümət təşkilatlarının dəstəyini necə əldə edə bilər.



**Hansı təcrübəni əldə etdiniz?**

Layihə üzərində işin son, yekun pilləsi bu layihə üzərində işin ərzində nəyi öyrəndiyinizi, hansı təcrübəni əldə etdiyinizi və hansı bacarıqları qazandığınızı dərk etməkdən ibarətdir. Sizin tərəfinizdən hazırlanan layihə ilə müvafiq təşkilatlara müraciət edə bilərsiniz. Eləcə də şagirdlərin layihələrinin maliyyələşdirilməsi ilə əlaqədar lazımi informasiyanı internet səhifəsi www.initiatives.ge-də izləyə bilərsiniz.



Aşağıda layihə üzərində iş nəticəsində qazandığınız təcrübəni analiz etməkdə sizə yardım edən suallar verilir:

1. Layihə üzərində işlədikdə şəxsən siz və bir dəstə kimi sinfiniz nəyi öyrəndi?
2. Bu layihə üzərində iş hansı bacarıqların qazanılmasında sizə yardım etdi?

3. Bir dəstədə iş prinsipinin hansı müsbət tərəfi var?
4. Bir dəstədə iş prinsipinin hansı mənfi tərəfi var?
5. Bu layihədə sizin ən böyük nailiyyətiniz nə idi?
6. Sinfin, bir dəstə kimi bu layihədə ən böyük nailiyyəti nə idi?
7. Problemin həlli bacarıqlarını necə yaxşılaşdıra bilərsiniz?
8. Bu layihə üzərində yenidən işlədiyinizdə nəyi dəyişərdiniz?

Siz artıq layihə üzərində işi bitirdiniz. Onu nailiyyətlə həyata keçirməyi arzulayırıq!



# Əlavə

Layihəni necə yazmaq üçün qısa dərslik materialı ilə tanış olun. Layihə ərizəsi növbəti hissələrdən ibarət olmalıdır:

**1. Titul vərəqi**
**2. Ərizəçi haqqında məlumat**
**3. Layihənin qısa xülasəsi**
**4. Problemin təsviri**
**5. Layihənin ətraflı təsviri**
**6. Layihənin həyata keçirilmə qrafiki**
**7. Layihənin benefisiarları**
**8. Layihənin benefisiarlarının sayı**
**9. Layihənin qiymətləndirilməsi**
**10. Layihənin büdcəsi**
**11. Risk amillərinin təsviri**

1. **Titul** vərəqinə təqdim edilən layihənin adını, layihənin həyata keçirilməsi üçün təyin edilən müddəti və layihənin müəllfi və müəlliflər qrupunu yerləşdirin.

2. **Ərizəçi haqqında məlumat** layihədə iştirak edən əsas tərəflərin, təşkilatların və ya fiziki şəxslərin fəaliyyətləri haqqında qısa məlumatdan ibarətdir. Bu informasiya bloku təşkilatın əsasının qoyulma tarixindən və onun tərəfindən həyata keçirilən fəallıqlardan, təqdim edilən layihə ilə və ya layihənin hər hansı bir komponenti ilə birbaşa əlaqədə olan layihələrdən ibarət olmalıdır. Tərəflərdən hər birinin və təşkilatın rəhbərinin əlaqə məlumatını göstərməyi unutmayın. Əlaqə məlumatında poçt və elektron ünvan, eləcə də telefon və faksın nömrələri göstərilir. Hal-hazırda təşkilatların əksəriyyətinin öz internet-səhifələri və ya bloqları var, bunları da göstərməyiniz yaxşı olardı ki, lazım gəldiyi halda, layihə ərizəsini təhlil edən ətraflı informasiyanı məhz bu resurslardan qəbul edə bilsin. Ərizənin bu hissəsində hər bir tərəfdaşın hansı konkret işi və fəallığı həyata keçirdiyini təsvir edin.

3. **Layihənin qısa xülasəsi** əsasən layihə ərizəsi bitirildikdən sonra yazılır. Bu hissədə siz layihənin məqsədini, məqsədin həyata keçirilməsinin əsas yollarını və gözlənilən nəticələri yekunlaşdırmalı və çox qısa şəkildə formalaşdırmalısınız. Layihənin qısa xülasəsini elə formalaşdırmalısınız ki, oxucunun

layihənin gözlənilən nəticələri barədə ümumi təsəvvürü yaransın. Eləcə də çalışın ki, layihə çərçivəsində planlaşdırılmış əsas nailiyyətlərini qısa şəkildə təsvir edəsiniz.

4. **Problemin/tələbin təsviri**– layihə ərizəsinin əsas hissələrindən biridir, burada ərizədə göstərilən məsələni nə üçün problemli hesab etdiyinizi dəlillərlə əsaslandırmalısınız. Bu hissəni formalaşdırdıqda daha çox sübutlardan, statistik məlumatlardan, özünüzün və ya digərlərinin müşahidələrinin və tədqiqatların nəticələrindən istifadə etməyə çalışın. Suallara cavab verin: bu problem nə üçün yaranmışdır? Hansı mənbələrə əsaslanaraq problemli olması nəticəsini çıxarırsınız? Unutmayın ki, problemin qoyulması faktlara, obyektiv məlumatlara əsaslanmalıdır. Bu hissəni formalaşdırdıqda mənim fikrimcə, bizim müşahidəmizlə kimi mühakimələrdən boyun qaçırmağa çalışın. Yuxarıda göstərilən məlumatlara, faktlara və ya tədqiqata əsaslanaraq problemi əsaslandırmağınız yaxşı olardı.

5. **Layihənin ətraflı təsviri** - ərizədə verilən problemin həll edilməsi üçün əsas  fəallıqları və yarımfəallıqları ayırmalısınız. Əyani göstərmək məqsədilə bu fəallıqları və sonra hər birinin yarımfəallıqlarını yazın. Bu hissəni hazırlamaq üçün növbəti suallara cavab verməlisiniz: hansı tədbirlər həyata keçirilir? Nə zaman, vaxtın və ya layihənin hansı mərhələsində və hansı tezliklə həyata keçirilir?  Harada həyata keçirilir? Kim həyata keçirir? Onların həyata keçirilməsində kim məsuliyyət daşıyır? Sizin və digər oxucular üçün əyani etmək üçün layihənin fəallıqlarını və onu təşkil edən məlumatın sözlü təsvirinə qrafik şəkillər və ya cədvəllər əlavə edə bilərsiniz. Bunu tez-tez layihənin həyata keçirilmə qrafiki də adlandırırıq. Layihənin ətraflı təsvirə, əsas fəallıqlara və yarımfəallıqlara ayrılması gələcəkdə real və yaxşı hesablanmış büdcəni tərtib etməkdə sizə yardım edəcəkdir.

6. **Layihənin həyata keçirilmə qrafiki** - cədvəl şəklində təqdim edilən layihə əməllərinin həftələrə, aylara, kvartallara və bəzən illərə əsasən ətraflı, zamanda yazılmış planı. Plan hansı fəallığın hansı vaxt müddətində həyata keçiriləcəyini göstərir. Bu planda eləcə də kiçik üçbucaqla (bu işarəni ingiliscə milestone adlandırırlar, yəni Mil daşı. Bu onu bildirir ki, əsas nəticə əldə edilmiş, fəallığın əsas hissəsi keçilmişdir)layihədə planlaşdırılmış əsas fəallığın başlıca  nailiyyətinin nə zaman  hazır olacağı müddəti (ay, həftə)  göstərə bilərsiniz.

7. **Layihədən mənfəət əldə edən şəxslər (benefisiarlar)** – bu hissədə təsvir edin ki, qeyd edilən layihənin mənfəət gətirdiyi insanlar/insan qrupları kimlərdir.Təxmini göstərməyə çalışın ki, neçə insan mənfəət əldə edəcəkdir, yaxud da layihənin nəticəsi neçə insanın üzərində yayımlanacaqdır.  Sonra layihənin nailiyyətini qiymətləndirdikdə bu təlimatdan istifadə edib qeyd edəcəksiniz ki, layihəniz müəyyən və ehtimal edilən insanlara xidmət edə bildimi və ya yox. Müsbət nəticə alındıqda layihənizin nailiyyət göstəricisindən biri olacaqdır.

8. **Benefisiarların bölünməsi** –benefisiarları kateqoriyalara əsasən bölməyiniz yaxşı olardı ki,(məs., 30 müəllim, 35 valideyn, 10 məktəbin administrasiyasının nümayəndələri, 100 icma nümayəndələri və s.) layihə nəticələrinin yayımlanma şəkli daha aydın olsun, nailiyyəti isə - daha ölçülü.

9. **Layihənin qiymətləndirilməsi** qiymətləndirmə kriterilərindən ibarətdir, yəni layihənin bu hissəsində necə ölçdüyünüzü və layihənin nailiyyətli olmasını nə zaman dediyinizi göstərirsiniz. Burada layihəyə cəlb olunan hər bir iştirakçı üçün sorğu anketini işləyib hazırlaya bilərsiniz. Sorğunu layihənin əvvəlində və sonunda keçirə bilərsiniz və ya təsadüfi seçim əsasında layihənin nəticələrinin əhəmiyyəti haqqında cəmiyyətin, layihə ilə faydalanan şəxslərin, yerli icmanın, ailə üzvlərinin fikrini öyrənmək üçün sorğu apara bilərsiniz.

10. **Layihənin büdcəsi** yuxarıda qeyd etdiyimiz kimi, layihənin ətraflı təsvirindən irəli gəlir. Buradaca donor təşkilatdan hansı miqdarda məbləği istədiyinizi və ərizəçinin iştirakçılarını (insan və maddi-texniki resurslar şəklində, məs., layihəni həyata keçirənlər tərəfindən layihə üçün təmənnasız əmək, layihə üçün konfrans zalının və ya texnikanın pulsuz verilməsi və sairə) göstərə bilərsiniz . Unutmayın ki, maliyyələşdirmə tələbatlı layihə də yazıla bilər. Konkret halda layihəni yerinə yetirmək üçün təmənnasız işləməyiniz daha real olardı, maliyyə xaricində. Belə bir layihənin həyata keçirilmə şansı daha çox olacaq, çünki maliyyəni əldə etmək çətindir və layihənin həyata keçirilməsini təhlükə altına salır. Sizin əsas məqsədinizi isə təkcə layihəni tərtib etmək deyil, eləcə də onu həyata keçirmək təqdim edir.

11. **Risk amillərinin təsviri** – layihəni yazmağa başlayana qədər düşünməyiniz və yazmağınız vacibdir ki, layihəni həyata

keçirdikdə hansı mümkün çətinliklərlə rastlaşa bilərsiniz. Risk-amilləri yazın və sonra ən çox gözlənilən amillərin dəf edilməsinin və qarşısınınalınmasının planını tərtib edin. Eləcə də təsvir edilən risk halında konkret fəallıqları həyata keçirəcək konkret şəxsi/şəxsləri ayırın. Həyata keçiriləsi təxirəsalınmaz fəallıqların siyahısını və yerinə yetirilməsinin ardıcıllığını yazın. Riskləri idarə etmək üçün əvvəlcədən tədbir görməyi unutmayın ki, sonra layihənin həyata keçirilməsi yarımçıq qalmasın.

# Lüğət

**Avtokratiya (yunanca – özünüidarəetmə)** – dövlətin idarəetmə forması, bu zaman tam hakimiyyət yalnız bir insana məxsusdur.

**Apatiya** – həvəsin, marağın olmaması, hər şeyə soyuqqanlı yanaşmaq.

**Aparteid** – Cənubi Afrikada irqi bölgü prinsipi; dini diskriminasiyanın formalarından biridir, hansını ki, idarəedən təbəqə yerli əhaliyə qarşı həyata keçirir.

**Aktual** – çox mühüm, olduqca önəmli.

**Bəyannamə** – elan, ictimai sənəd. Onda təyinatından irəli gələrək müxtəlif növ məlumatlar verilir. Bəyannamədə tərəflər arasında razılaşdırılmış prinsiplər və strategiyalar formalaşdırılmışdır. Birləşmiş Millətlər Təşkilatı (BMT) tez-tez böyük təsirə malik məcburi xarakter daşımayan bəyannamələri dərc edir.

**BMT** – Birləşmiş Millətlər Təşkilatı. Ümumi sülhün təmin edilməsi və dövlətlərarası əməkdaşlığın beynəlxalq təşkilatı. 1945-ci ilin iyunun 26-da yaradılmışdır. Bu zaman San-Fransisko konfransında50-dən çox dövlət onun nizamnaməsinə imza atdı. Nizamnamə 1945-ci ilin oktyabrın 24-də qüvvəyə mindi. Həmin gün hər il dünyada BMT günü kimi qeyd edilir.Hal-hazırda BMT-nin 192 üzvü vardır. BMT-nin əsas məqsədləridir:

- beynəlxalq sülhü qorusun;
- xalqların hüquq bərabərliklərinə və özünü gerçəkləşdirmə prinsipinə əsaslanan dövlətlərin dost münasibətlərini inkişaf etdirsin;
- iqtisadi, sosial, mədəni və humanitar problemlərin həlli üçün beynəlxalq əməkdaşlığı həyata keçirsin;
- irqinə, cinsinə, dilinə və dininə baxmayaraq insanın əsas hüquqlarına ümumilikdə hamının hörmət göstərməsinə imkan yaratsın

**Dilemma** – 1. (mən.)iki, bir-birini istisna edən qaydalardan ibarət müzakirə və ya nəticədir, hansılardan birinin seçilməsi vacibdir. 2. Elə bir vəziyyətdir, nə zaman ki, xoşagəlməz imkanlardan birini seçmək lazımdır.

**Diskriminasiya** — ayrı-ayrı şəxslərin və ya qrupların hüquqlarının məhdudlaşdırılması və ya əsaslandırma xaricində onlara mənfi yanaşma.

**Diktatura** — hakim sinfin və ya hakim şəxsin dövləti qeyri-məhdud şəkildə idarəetməsi.

**Etnosentrizm** — bir etnik qrupun digərindən yaxşı olması fikri.

**Elektorat** — müxtəlif səviyyəli seçkilərdə iştirak edə və hər hansı bir qrupun tərəfini tuta bilən insanlar.

**Emiqrant** — daimi yaşayış üçün başqa dövlətə köçüb gedən şəxs.

**İcma** — iki və ya bir neçə qəsəbənin və ya kəndin sakinlərinin birliyi.

**İrqi diskriminasiya** — insana irqinə, dərisinin rənginə, mənşəyinə, milli və ya etnik mənsubiyyətinə görə hər hansı bir məhdudiyyətin, fərqin, istisnanın və ya üstünlüyün verilməsi prosesi. İrqi diskriminasiya zamanı siyasi, iqtisadi, sosial, mədəni və ya ictimai həyatın hər hansı bir başqa sahəsində insanın fərdi hüquqlarının və əsas azadlıqlarının, bərabərlik prinsiplərinin tanınması və onun həyata keçirilməsi imkanları inkar edilir, kiçildilir.

**İnsan hüquqlarının ümumi bəyannaməsi** — BMT-nin Baş Assambleyası tərəfindən 1948-ci ilin dekabrın 10-da qəbul edilmişdir və həm mülki və siyasi, eləcə də iqtisadi, sosial və mədəni hüquqlara aiddir. Xüsusilə də bəyannamə ilə yaşamaq haqqı, şəxsi toxunulmazlıq hüququ və s. kimi hüquqlar nəzərə alınmışdır. Ümumi bəyannamə hüquqi baxımdan icbari deyil, tövsiyə xarakterli sənəddir.

**Kommunizm** — ictimai-siyasi ideologiya, hansına əsasən həm hökümət, eləcə də mülkiyyət cəmiyyətin əlində olmalıdır. İctimai firavanlıq ümumilikdə əlçatılan olmalıdır. Marksist nəzəriyyəsinə əsasən kommunizm ictimai inkişafın son nöqtəsi, sinifsiz ictimaiyyətdir. Cəmiyyətin hər üzvü qabiliyyət və imkanları çərçivəsində çalışır, amma tələbatına əsasən alır.

**Kompromis** — qarşılıqlı güzəşt yolu ilə əldə edilən razılıq.

**Konsensus** – bütün fikirləri nəzərə almaqla qrupun ümumi razılaşmaya gəlməsi.

**Marginal** – sosial qrupdan kənarlaşdırılan, təcrid olunan.

**Məqsədə nail olmaq üçün təbliğatçı (təbliğat aparan şəxs)** – mühüm faktlardan yan keçir və ya onu eybəcərləşdirir və auditoriyaya yalnız onun üçün qəbul edilən məlumatı çatdırmağa çalışır.

**Məhdud imkanlı şəxs** – xəstəlik, travma, əqli və ya fiziki qüsuru nəticəsində sağlamlığı az-çox pozulduğuna görə orqanizminin həyat funksiyaları pozulan məhdud imkanlı şəxs. Bu da peşəkar əmək qabiliyyətinin tam və ya qismən itirilməsinə və ya məişət həyatının mühüm şəkildə çətinləşməsinə səbəb olur və əmək qabiliyyətinin müvəqqəti və ya ömürlük məhdudlaşdırılmasına və sosial cəhətdən müdafiə olunmaq tələbatına gətirib çıxarır (Tibb, sosial ekspertiza haqqında Gürcüstan qanunu, Ümumi nizamnamə, maddə 3).

**Milli azlıqlar** – verilən ölkədə daim yaşayan əhalinin qeyri-dominant hissəsi. Bu hissə əhalinin əksəriyyətindən öz etnik, dini və ya linqvistik xüsusiyyətləri ilə seçilir və öz varlığını qoruyub saxlamağa çalışır.

**Müxtəliflik** – cəmiyyət üçün əhəmiyyətli məsələlərə aid olan qərarların qəbul edilməsində bütöv cəmiyyət və icma, bütün azlıq qrupu ədalətli şəkildə iştirak edir.

**Nihilizm** – hər şeyə soyuqqanlı yanaşma.

**Opponent** – mübahisə zamanı əks fikirli insan.

**Plüralizm** – fikirlərin müxtəlifliyinin olması və onların tanınması.

**Portfolio** – işlərin toplumu, bir növ qovluq. Portfolio şagirdin yerinə yetirdiyi ev və sinif tapşırıqlarından, qrup layihələrinin hesabatlarından və s. ibarət ola bilər. Portfolionun təyinatıdır ki, şagird materialı toplasın, işini özü qiymətləndirsin və hansı biliyi aldığını və seçilmiş mövzu üzərində iş prosesində hansı vərdiş-bacarıqları qazandığını dərk etsin. Portfolio imkan verir ki, şagird hansı səhvləri buraxdığını anlasın və gələcəkdə buna bənzər səhvlərin qarşısını ala bilsin.

**Gender bərabərliyi** – qadın və kişinin eyni hüquqları və imkanları, eyni məsuliyyətləri və vəzifələri.

**Genosid** – fövqəladə sistematik əməllər (qətl, fiziki və əqli zərər yetirilməsi, doğumun məhdudiyyəti, uşaqların doğma yerlərindən zorla uzaqlaşdırılmas)ı. Genosidin məqsədi konkret etnik, siyasi və ya mədəni qrupun ləğv edilməsi və ya onun dilinin, dininin və mədəniyyətinin məhv edilməsidir.

**Qədim yunan şəhər** – dövlətləri bir-birindən çox fərqli idilər: idarəetmə forması ilə, sosial iyerarxiya ilə, qanunvericilik strukturu ilə və qərarların qəbul edilmə prosedurları ilə. Məs., Afinada demokratik idarəetmə idi, Spartanı isə 2 şah idarə edirdi.

**Rasizm (irqçilik)** – insanların bir irqinin digərindən yaxşı olması barədə düşüncə.

**Stereotip** – insanların və ya ideyaların çox sadə, ayrı və bir çox hallarda qeyri-şüuri anlayışıdır, hansı ki, əvvəlcədən yaradılmış mənfi fikrə və diskriminasiyaya səbəb ola bilə. “Stereotip” termini çap avadanlığının adı ilə əlaqələnir. Stereotip bütöv polad çap formasıdır və onu yaratdıqdan sonra çətinliklə dəyişilir.Məcazi mənada, stereotip dəyişilməyəni, şablonu bildirir.

**Stiqma** – Qədim Yunanıstanda: qulun və ya müqəssirin bədəninə vurulan damğa. İnsanların mənfi damğa ilə təyin olunması.

**Təbliğat, propaqanda** – (lat. propaganda,hərfi mənası – yayımlanmaya aid olan) müxtəlif simvolların vasitəsilə (sözlə, lozunqlarla, musiqi ilə, media vasitələri ilə və s.) insanların nəzərlərinə, fikirlərinə, ümumiyyətlə, şüura ideya təsiri göstərilir. Məqsədə nail olmaq üçün təbliğatçı (təbliğat aparan şəxs) mühüm faktlardan yan keçir və ya onu eybəcərləşdirir və auditoriyaya yalnız onun üçün qəbul edilən məlumatı çatdırmağa çalışır.

**Şəhər-dövlət** – (yunanca, - Polis) müstəqil, muxtar təsisat. Qədim Yunanıstanda şəhər-dövlətlər mədəniyyətin ayrı-ayrı idarəetmə vahidləri idilər.Onların ümumi dilləri, dini təsəvvürləri və dünyagörüşləri var idi. Amma qanunvericilik və şəhərin idarəetməsi suveren dövlət prinsipinə əsasən təqdim olunurdu. Yunanlar şəhər-dövləti polis adlandırırdılar. Politika (siyasət) termini məhz buradan götürülmüşdür.O, yalnız bir şəhərdən ibarət idi, necə ki, müasir Monako və Lüksemburqda olduğu kimi.

**İstifadə olunan ədəbiyyat və fotoşəkillər**

(İstifadə edilən ədəbiyyatla tanışlıq sizə dərslikdə təhlil edilən mövzuları daha dərindən öyrənməyə yardım edəcəkdir)


1. İnsan hüquqlarının lüğəti, – Tbilisi, 2005-ci il.;
2. "Hüquqlara doğru yol" 2002-ci il., Müəllif qrupu (Norveçin Qaçqınlar Şurasının tərəfdaşlığı ilə);
3. Kompas, Gənclərin iştirakı ilə insan hüquqlarının təhsil sahəsində dərsliyi. Müəlliflər: Patrisiya Brander, Rui Qomes, Elli Kin və b. Gürcü nəşr. Red. Qiorqi Kenoşvili, Tbilisi 2004.
4. "Kompasito" –Uşaqlar üçüninsan hüquqlarının təhsili sahəsində dərslik– müəlliflər: Nensi Flauers, Co Kleys, Rania Fazah, Anet Şnayder, Jujana Selen, - 2009-cu il;
5. Müxtəlifliyin idarəetmə əsasları, "Tərəfdaşlar - Gürcüstan" 2010-cu il.
6. "İlk addımlar" – İnsan hüquqlarının təhsili üçün ibtidai dərslik– 1996-cı il.;
7. Mülki təhsil, Müəllimin kitabxanası, I,II. Lüğət, Məlumat kitabçası. Tbilisi 2010 il., İmtahanların Milli Mərkəzi;
8. We the People… Project Citizen – Center for Civic Education, 2001 w.
9. səh.11 © Freedom House
10. səh. 12. © Mikle15/Dreamstine.com
11. səh.13 © Roza İnanişvili
12. səh. 14 "Balaca oğlan Qolqofda" – Revaz İnanişvili © Roza İnanişvili
13. səh. 25 © Julia Freeman-Woolpert
14. səh. 26 © Renjith Krishnan
15. səh. 36 © DavitNadaraia
16. səh. 45 © Maggie Smith
17. səh. 47 © Master Isolated Images
18. səh. 49 © www.vectoropenstock.com
19. səh. 57 © Qoqa Çanadiri
20. səh. 62 © Florida Center for Institutional Technology, 2009
21. səh. 65 © Gürcüstan kino – foto arxivi
22. səh 67 © Qoqa Çanadiri
23. səh. 70 © Gürcüstan kino – foto arxivi
24. səh. 76 © Qoqa Çanadiri
25. səh. 78 © Gürcüstan Karitası; © Human Rights Watch; © Federation internationale desligues des droits de l'Homme
26. səh. 79 © Bailly ElodieB
27. səh. 81 © Qoqa Çanadiri